

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

14 noyabr 2025-ci il, cümə

№ 207 (7034)

Qiymətі 60 qəpik


# Qardaş ölkə və etibarlı müttəfiq...

## İlham Əliyev: Zəngəzur dəhlizinin açılması bütün Mərkəzi Asiya ölkələrinə fayda gətirəcək

Bax səh. 2



## Ədalətin bərpasına aparan yol...

## Ölkəmiz beynəlxalq nəqliyyat qovşağına çevrilir...



Bax səh. 5

## Azərbaycanın bölgələri ən yüksək standartlara cavab verməlidir!

Bax səh. 3

### ABŞ-ın İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin nümayəndə heyəti Bakıda...

Bax səh. 2

### Dünya Azərbaycanın sülh gündəliyini alqışlayır

Bax səh. 4

### 3 saatlıq görüş... Qazaxıstan və Rusiya prezidentləri nələri müzakirə ediblər?

Bax səh. 6

### 79 ildən sonra... Əhməd Əl-Şaraa ABŞ-a səfər edən ilk Suriya prezidenti oldu

Bax səh. 6

## Şatdaun sona çatdı...



Bax səh. 7

## İpoteka mexanizmi təkmilləşdirilir



Bax səh. 5

# ABŞ-ın İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin nümayəndə heyəti Bakıda...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də ABŞ-ın İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinə "On İki Həvari Kvorumu"nun üzvü Deyvid Bednar, Yetmişlər Komitəsinin üzvü və Avropa Mərkəzi Ərazi İdarəsinin birinci məsləhətçisi Cek Gerard, Stirlinq Fondunun prezidenti və İdarə Heyətinin sədri Mayls Hansen və Yetmişlər Komitəsinin Mərkəzi Avropa və Avrasiya üzrə kvorumunun üzvü Pol Pikard daxildir.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Prezident İlham Əliyevlə ABŞ-ın İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin nümayəndə heyətinin əvvəlki görüşləri məmnunluqla xatırlandı.

Qonaqlar ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə təbriklərini çatdırdılar.

Təbriklərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı Vaşinqtonda Azərbaycan və Ermənistan arasında əldə olunmuş razılaşmaların tarixi əhəmiyyət daşıdığını deyərək, onların regionun inkişafı üçün



mühüm rol oynadığını vurğuladı. Donald Trampın yenidən Prezident seçilməsindən sonra Azərbaycan-ABŞ əlaqələrinin yeni mərhələyə keçdiyini bildirən Prezident İlham Əliyev bu ilin avqustunda Vaşinqtona səfəri çərçivəsində ikitərəfli münasibətlərimizin inkişafı ilə bağlı mühüm sənədlərin imzalandığını xatırladı.

Qonaqlar Azərbaycan hökumətinin Amerika Birləşmiş Ştatlarının İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsini rəsmi qeydiyyata almasına görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirərək, bu kilsənin Bakı ofisinin açılışında iştirak edəcəklərini dedilər və bunu ölkəmizdə bütün dinlərin nümayəndələrinə göstərilən qayğının təcəssümü kimi qiymətləndirdilər.

Görüşdə Azərbaycanda mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi ilə bağlı dövlət səviyyəsində həyata keçirilən işlərdən söhbət açıldı, bu istiqamətdə ölkəmizdə bir çox mühüm beynəlxalq tədbirin təşkil edildiyi vurğulandı.

Tolerantlığın xalqımızın həyat tərzi olduğu bildirildi, tarixən ölkəmizdə müxtəlif dinlərin və xalqların nümayəndələrinin bir ailə kimi dinc və sülh şəraitində yaşadığı qeyd edildi.

# Qardaş ölkə və etibarlı müttəfiq...



## İlham Əliyev: Zəngəzur dəhlizinin açılması bütün Mərkəzi Asiya ölkələrinə fayda gətirəcək

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibə verib.

AZƏRTAC müsahibəni təqdim edir.

**-Hörmətli cənab Prezident, Siz tezliklə Daşkənddə keçiriləcək Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşündə iştirak etməyə hazırlaşırsınız. Siz regional əməkdaşlığın bu formatı barədə nə deyə bilərsiniz? Azərbaycanın bu regionla əlaqələri necə inkişaf edir və əməkdaşlığın indiki səviyyəsi Sizi qane edirmi?**

-Əvvəlcə qeyd etmək istəyirəm ki, bu, mənim Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşündə sayca üçüncü iştirakım olacaq. Dəvət aldığım ilk görüş 2023-cü ildə Düşənbədə, ikincisi isə 2024-cü ildə Astanada keçirilib və qarşıdakı görüşün Daşkənddə keçirilməsi gözlənilir. Mən dəvətə, həmçinin Azərbaycanın bu mühüm tədbirdə iştirakına göstərilən dəstəyə görə bütün həmkarlarıma, ilk növbədə isə qardaşım Şavkat Mirziyoyevə səmimi təşəkkürümü bildirirəm.

Azərbaycan və Mərkəzi Asiya ölkələri artan strateji əhəmiyyətə malik vahid tarixi, mədəni, coğrafi və geosiyasi məkanı formalaşdırır. İlk baxışda Azərbaycanı Mərkəzi Asiya ölkələrindən fiziki olaraq ayırsa da, Xəzər dənizi, əslində, mühüm birləşdirici amildir. Bu gün Xəzər dənizi, sadəcə, coğrafi anlayış deyil, o, hər şeydən əvvəl xalqlarımızın strateji birliyinin, iqtisadi potensialının və tarixi əməkdaşlığının rəmzidir.

Ölkələrimizi təkcə coğrafiya deyil, həm də tarixi-mədəni əlaqələr, ortaq dini və mənəvi dəyərlər, adət-ənənələr birləşdirir.

Azərbaycan regiondakı bütün ölkələrlə ən yüksək səviyyədə əməkdaşlığın hərtərəfli inkişafına xüsusi əhəmiyyət verir. Hesab edirəm ki, Mərkəzi Asiya ölkələri ilə Azərbaycan arasında ikitərəfli əsasda qurulan strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri, həmçinin fəal siyasi dialoqumuz və qarşılıqlı səfərlərimiz bu əməkdaşlıq formatının uğurunda mühüm rol oynayır.

Son bir neçə ildə dövlət başçıları arasında qarşılıqlı səfərlərin və təmasların dinamikası münasibətlərimizin yüksək səviyyəsini əyani şəkildə nümayiş etdirir. Belə ki, son üç ildə Mərkəzi Asiya dövlətlərinin başçıları Azərbaycana təxminən 30 səfər ediblər və mən özüm də həmin müddətdə qardaş ölkələrdə 13 dəfə səfərdə olmuşam.

Orta Dəhlizin artan əhəmiyyəti əməkdaşlığımızın genişləndirilməsi üçün əhəmiyyətli imkanlar yaradır.

Əminəm ki, Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət görüşü qardaş xalqlarımız arasında əsrlər boyu davam edən dostluğun möhkəmləndirilməsində, siyasi, iqtisadi, nəqliyyat, investisiya, enerji, mədəni, humanitar və rəqəmsal transformasiya sahələrində çoxsəviyyəli əməkdaşlığın genişləndirilməsində əhəmiyyətli mərhələ olacaq.

**-Hörmətli cənab Prezident, Siz Azərbaycan ilə Mərkəzi Asiya ölkələri arasında qarşılıqlı səfərlərin intensivliyini, fəal siyasi dialoqu və yüksəksəviyyəli qarşılıqlı anlaşmanı vurğuladınız. Diqqət yetirdik ki, son bir il yarım ərzində Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycana beş dəfə səfər edib. Bundan başqa, Siz il ərzində müxtəlif beynəlxalq məkanlarda bir neçə dəfə görüşmüsünüz. Azərbaycan ilə Özbəkistan arasında diplomatik münasibətlərin qurulmasının hazırkı 30-cu ildönümündə ikitərəfli əlaqələrin vəziyyətini necə xarakterizə edərdiniz?**

-Özbəkistan Azərbaycan üçün qardaş ölkə və etibarlı müttəfiqdir. Bizi ortaq köklər, mənəvi dəyərlər, dil, etnik yaxınlıq, zəngin tarixi və mədəni irs birləşdirir. Əsrlər boyu qardaş xalqlarımız bir-birinə dərin rəğbət və hörmət bəsləyiblər. Sevindirici haldır ki, dövlətlərarası münasibətlərimiz bu möhkəm təməl üzərində uğurla inkişaf edir.

Bu gün Azərbaycan ilə Özbəkistan arasında münasibətlər ən yüksək - müttəfiqlik səviyyəsindədir.

Münasibətlərimizin inkişafına təsir edən digər, əhəmiyyəti heç də az olmayan amil Özbəkistan Prezidenti Şavkat Miromonoviç Mirziyoyev ilə aramızda yaranan şəxsi etimad və dostluq münasibətləridir. Prezidentin dövlətlərarası münasibətlərimizin inkişafına şəxsi töhfəsini, onun çoxşaxəli əməkdaşlığımızın ardıcıl olaraq gücləndirilməsinə daim diqqət yetirməsini xüsusi vurğulamaq istərdim.

Qardaş Özbəkistanın lideri, görkəmli dövlət xadimi və Azərbaycanın böyük dostu Prezident Şavkat Mirziyoyevi ölkəmizdə salamlamaq bizim üçün həmişə böyük şərəf və məmnuniyyətdir. Qeyd etdiyiniz kimi, son bir il yarım ərzində beş belə səfər olub. Bütün bunlar münasibətlərimizin yüksək dinamikasını əyani şəkildə göstərir.

Keçən ilin avqustunda mənim Özbəkistana dövlət səfərim oldu, bu ilin iyulunda isə Özbəkistan Prezidenti Azərbaycana dövlət səfəri etdi. Bu tarixi səfərlər zamanı onlarla mühüm sənəd, o cümlədən Strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında Bəyannamə, Müttəfiqlik münasibətləri haqqında Müqavilə, "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilənin həyata keçirilməsi üzrə 2025-2029-cu illər üçün "Yol Xəritəsi" və digər sənədlər imzalandı. Qısa müddət ərzində çox böyük işlər görüldü. Bütün bu qarşılıqlı səfərlər Azərbaycan-Özbəkistan münasibətlərinin həm ikitərəfli əsasda, həm də Mərkəzi Asiya və Xəzər regionu da daxil olmaqla, vahid coğrafi məkanda yeni tərəfdaşlıq imkanlarının reallaşdırılması baxımından bütün sahələrdə möhkəmləndirilməsinə əhəmiyyətli təkan verib.

Həmçinin 2023-cü ilin avqustunda təsis edilmiş Ali Dövlətlərarası Şura da münasibətlərimizin inkişaf strategiyasının müəyyənləşdirilməsində xüsusi rol oynayır. Şura artıq qarşılıqlı dövlət səfərləri çərçivəsində 2024-cü il avqustun 22-də Daşkənddə və 2025-ci il iyulun 2-də Bakıda iki iclas keçirib.

Özbəkistan Azərbaycanın ərazi bütövlüyünü dəyişməz olaraq dəstəkləyib. Fürsətdən istifadə edərək, qardaş Özbəkistana Qarabağın bərpasına verdiyi töhfəyə, xüsusən də azad edilmiş Füzulidə böyük özbək alimi Mirzə Uluqbəyin adını daşıyan və hazırda təxminən 600 şagirdin təhsil aldığı məktəbin tikintisinə görə minnətdarlığımı bildirirəm. Özbəkistan Qarabağ bölgəsinin yenidən qurulmasına yardım göstərmək təşəbbüsünü irəli sürən ilk ölkə, Prezident Mirziyoyev isə dünyada ilk lider olub. Biz bunu həmişə xatırlayacaq, ölkələrimiz və xalqlarımız arasında həmrəylik, dostluq və qardaşlıq jesti kimi qəbul edəcəyik.

Qardaş ölkəyə qarşıdakı səfəri səbirsizliklə gözləyirəm. Hər dəfə Özbəkistanın dinamik inkişafını və özbək xalqının əldə etdiyi heyranedici nailiyyətləri böyük məmnunluqla müşahidə edirəm. Həyata keçirilən genişmiqyaslı islahatlar və cəmiyyətin bütün sahələrinin ardıcıl müasirləşdirilməsi ölkənin nüfuzunun davamlı artmasına və beynəlxalq aləmdə mövqeyinin möhkəmlənməsinə kömək edir. Bu nailiyyətlər dostum və qardaşım Prezident Şavkat Mirziyoyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və düşünülmüş dövlət siyasətinin göstəricisidir.

Ölkələrimiz arasında əməkdaşlıq təkcə ikitərəfli formatda deyil, həm də beynəlxalq platformalarda uğurla inkişaf edir. Azərbaycan və Özbəkistan Türk Dövlətləri Təşkilatının fəal üzvləridir və türk birliyinin möhkəmləndirilməsinə mühüm töhfələr verirlər. Bundan əlavə, münasibətlərimiz BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, AQEM və digər beynəlxalq təşkilatlar çərçivəsində uğurla inkişaf edir.

**-Azərbaycan ilə Özbəkistan arasında iqtisadi-ticari əməkdaşlığın hazırkı səviyyəsini necə qiymətləndirirsiniz?**

-İqtisadi-ticari əməkdaşlığın dinamikası tam məmnunluq doğurur və onun səviyyəsinin daha da artmasına kömək edir. Hər iki tərəf qarşılıqlı əməkdaşlığı genişləndirmək üçün əhəmiyyətli səylər göstərir, yeni layihələr irəli sürür və birgə təşəbbüslərin həyata keçirilməsinə xüsusi əhəmiyyət verir. Bu gün Azərbaycanda təxminən 120 Özbəkistan investisiyalı kommersiya təşkilatı qeydiyyatdan keçib və iqtisadiyyatın müxtəlif istiqamətlərində - sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat və xidmət sahələrində uğurla fəaliyyət göstərir.

Azərbaycanla Özbəkistan arasında ticarət sürətli templə inkişaf edir. Belə ki, 2024-cü ildə əmtəə dövriyyəsi 252 milyon ABŞ dolları təşkil edib və 2025-ci ilin yanvar-sentyabr aylarında bu göstərici keçən ilin eyni dövrü ilə müqayisədə 87,5 faiz artaraq 319 milyon ABŞ dollarına çatıb.

Sərmayələr sahəsində əməkdaşlıq da möhkəmlənməyə davam edir. Bu günədək Özbəkistan Azərbaycan iqtisadiyyatına 21,8 milyon ABŞ dolları, həmçinin Azərbaycan Özbəkistan iqtisadiyyatına 183,5 milyon ABŞ dolları sərmayə qoyub. 2023-cü ildə həm ölkələrimizin daxilində, həm də üçüncü ölkələrdə sərmayə qoyuluşunu nəzərdə tutan ümumi kapitalı 500 milyon ABŞ dolları olan Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti yaradılıb.

Yüngül sənayenin inkişafı üçün yeni imkanlar açan, ənənəvi dostluq və qardaşlıq münasibətlərini möhkəmləndirən birgə müəssisə - Xankəndidə tikiş fabriki xüsusilə diqqətəlayiqdir.

Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlığa dair Hökumətlərarası Komissiyanın iqtisadi əlaqələrin inkişafı və perspektivli işbirliyi istiqamətlərinin müəyyənləşdirilməsi sahəsindəki aktiv fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Artıq mütəmadi olaraq keçirilən Azərbaycan-Özbəkistan Regional Forumu bu istiqamətdə əməkdaşlığın təşviqi üçün səmərəli platformadır.

Azərbaycan qardaş Özbəkistan ilə iqtisadiyyatın bütün sahələrində əməkdaşlığı daha da genişləndirməkdə maraqlıdır. Bunun üçün güclü siyasi iradə və əhəmiyyətli potensial mövcuddur. Bu günədək iqtisadi münasibətlərimizin daha da inkişafı üçün etibarlı hüquqi baza yaradan təxminən 200 sənəd imzalanıb. Azərbaycan hər iki tərəfin maraqlarına uyğun olan və xalqlarımız arasında dostluğun, tərəfdaşlığın möhkəmlənməsinə töhfə verən qarşılıqlı faydalı əməkdaşlığı bundan sonra da dəstəkləyəcək.

**-Nəqliyyat, logistika və energetika sahələrində ikitərəfli əməkdaşlığın hansı perspektivlərini görürsünüz?**

-Ölkələrimiz arasında əməkdaşlığın əsas istiqamətlərindən biri şaxələndirilmiş nəqliyyat və logistika infrastrukturunun inkişafı, tranzit imkanlarının genişləndirilməsidir. Bu sahədə ölkələrimizin Orta Dəhliz Beynəlxalq Nəqliyyat Marşrutunda iştirakı xüsusi əhəmiyyətə malikdir və onun çərçivəsində Azərbaycan Özbəkistan və Mərkəzi Asiya dövlətləri üçün mühüm tranzit ölkə qismində çıxış edir. Son illərdə Orta Dəhliz vasitəsilə ixrac imkanlarının və daşımaların artması xüsusi strateji əhəmiyyətə malikdir.

2024-cü ildə ölkələrimiz arasında tranzit daşımaların həcmi 2023-cü illə müqayisədə 18 faizdən çox artaraq 1,3 milyon tonu keçib. 2025-ci ilin ilk doqquz ayında bu rəqəm təxminən bir milyon tona çatıb ki, bu da nəqliyyat mübadilələrində dinamik artımı nümayiş etdirir.

Azərbaycanda yaradılan müasir nəqliyyat infrastrukturu, o cümlədən ticarət donanması, yaxın illərdə gücü 25 milyon tona çatacaq Ələt Beynəlxalq Ticarət Limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və ölkənin doqquz beynəlxalq hava limanı da daxil olmaqla, bütün bunlar Azərbaycanın qlobal nəqliyyat və logistika qovşağı kimi rolunu gücləndirən amillərdir. Bundan əlavə, Zəngəzur dəhlizinin açılması bütün Mərkəzi Asiya ölkələrinə fayda gətirəcək.

Hava nəqliyyatının inkişafı və şəhərlərimiz arasında uçuşların intensivliyi xüsusi əhəmiyyət kəsb edir. AZAL müntəzəm sərnişin reysləri - Bakı-Daşkənd-Bakı (həftədə 7 uçuş), Bakı-Səmərqənd-Bakı (həftədə 2 uçuş) və Bakı-Ürgənc-Bakı (həftədə 2 uçuş) həyata keçirir. Öz növbəsində, "Uzbekistan Airways" Daşkənd-Bakı-Daşkənd marşrutu üzrə həftədə üç, "Centrum" isə həftədə iki uçuş yerinə yetirir.

Energetika sektorunda əməkdaşlıq və yaşıl enerjinin inkişafı da prioritet istiqamət olaraq qalır. SOCAR Özbəkistana Azərbaycanın neft məhsullarını və neft-kimya məhsullarını ixrac edir. 2016-cı ildən bəri "OZLITINEFTGAZ" İnstitutunun və "SOCAR NIPI Neftegaz"ın bazasında yaradılan "Neftegaztexnologiya" birgə müəssisəsi uğurla fəaliyyət göstərir.

2024-cü ildə Azərbaycan, Qazaxıstan və Özbəkistan enerji sistemlərinin inteqrasiyasına və bərpaolunan enerji mənbələrinin təşviqinə yönəlmiş bir sıra strateji sazişlər, memorandumlar imzalayıblar ki, bu da regionun davamlı inkişafı və enerji əməkdaşlığını gücləndirmək üçün yeni perspektivlər açır.

**-Azərbaycan ilə Özbəkistan arasında mədəni və humanitar sahələrdə əməkdaşlıq barədə nə deyə bilərsiniz?**

-Mədəni və humanitar əməkdaşlıq ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin möhkəmləndirilməsində, həmçinin xalqlarımızın birbaşa əlaqələrinin genişləndirilməsində mühüm rol oynayır. Biz ortaq tarixi və mədəni dəyərləri qorumaq, bütün səviyyələrdə sıx əməkdaşlıq etmək üçün birgə səylər göstəririk.

Belə ki, 2023-cü ildə Azərbaycanda Özbəkistan Mədəniyyəti Günləri, 2024-cü ildə isə Özbəkistan Elm və Mədəniyyət Günləri keçirilib. Elə həmin il Özbəkistanda Azərbaycan Mədəniyyəti Günləri, Xivə şəhərində isə "Şuşa günləri" təşkil olunub. Bu tədbirlər xalqlarımızın zəngin mədəni irslərini bölüşmək, qarşılıqlı anlaşmanı dərinləşdirmək və bir-birinin mənəvi məkanını qarşılıqlı şəkildə zənginləşdirmək istəyini əks etdirir.

Ölkələrimizin regionları arasında əməkdaşlığa xüsusi diqqət yetirilir. İsmayıllı-Riştan, Şuşa-Xivə, Lənkəran-Buxara, Şəki-Kokand, Biləsuvar-Termez, Mingəçevir-Namanqan, Füzuli-Gülüstan, Quba-Cizak və Beyləqan-Şəhrisəbz şəhərləri arasında qardaşlaşma və tərəfdaşlıq münasibətləri qurulub. Bu cür regionlararası əlaqələrin fəallaşması xalqların yaxınlaşmasına, təcrübə mübadiləsinin aparılmasına və əməkdaşlığın mədəni-humanitar gündəliyinin möhkəmləndirilməsinə kömək edir.

Ölkələrimiz arasında dostluğun rəmzi ifadəsi mədəni əhəmiyyəti olan obyektlərdir: Daşkənddə Heydər Əliyev meydanı var və bu ilin iyulunda Bakıda "Özbəkistan" parkının təməli qoyulub.

Fürsətdən istifadə edərək, həmçinin Azərbaycan xalqının Ümummilli Lideri, özbək xalqına həmişə böyük sevgi hissləri bəsləyən Heydər Əliyevin xatirəsinə göstərilən ehtiram və həqiqətən qardaşlıq münasibətinə görə Özbəkistan rəhbərliyinə, bütün qardaş xalqa minnətdarlığımı bildirmək istəyirəm.

Həmçinin idman sahəsində əməkdaşlıqda yaxşı nəticələr var. İki ölkənin birgə səyləri sayəsində FIFA İcraiyyə Komitəsi 2027-ci ildə keçiriləcək futbol üzrə U-20 Dünya çempionatının final mərhələsini Azərbaycanda və Özbəkistanda təşkil etmək qərarına gəlib. Bu, Avropa ilə Asiyanı birləşdirəcək ortaq tarixi nailiyyətdir.

Media və qeyri-hökumət təşkilatları sahələrində əməkdaşlıq da məhsuldar inkişaf edir. 2024-cü il sentyabrın 23-dən 25-dək Daşkənddə Birinci Özbəkistan-Azərbaycan Media Forumu, 2025-ci il sentyabrın 29-da isə Bakıda İkinci Azərbaycan-Özbəkistan Media Forumu keçirilib. Bundan əlavə, 2024-cü ilin dekabr ayında Daşkənddə ilk dəfə Özbəkistan-Azərbaycan Qeyri-Hökumət Təşkilatları Forumu təşkil olunub.

Bütün bu tədbirlər və həyata keçirilən layihələr Azərbaycan ilə Özbəkistanın mədəni, humanitar sahələrdə güclü qardaşlıq münasibətlərini əyani şəkildə nümayiş etdirir, xalqlarımız arasında dostluğun möhkəmlənməsinə, mənəvi və mədəni qarşılıqlı əlaqələrin daha da inkişafına xidmət göstərir.

**-Cənab Prezident, sıx iş cədvəlinizdə bu məzmunlu müsahibəyə vaxt ayırdığınıza görə Sizə minnətdarıq.**

-Özbəkistan cəmiyyətinin həm Azərbaycan-Özbəkistan gündəliyində, həm də bütövlükdə regionda baş verən proseslərə artan marağını qeyd etməkdən çox məmnunam. Qoy, əsrlər boyu qardaş xalqlarımızı və ölkələrimizi birləşdirən dostluq və əməkdaşlıq əlaqələri daha da möhkəmlənsin.

# İlham Əliyev: Əyri yola gedən hər bir dövlət məmuru nəticədə məhkəmə, qanun qarşısında cavab verməli olur



# Azərbaycanın bölgələri ən yüksək standartlara cavab verməlidir!

**Azərbaycanda özünəməxsus idarəçilik modeli formalaşıb. O cümlədən də respublikamızda yeni məsul vəzifələrə təyinatlar alan məmurların Prezident İlham Əliyev tərəfindən qəbul edilməsi artıq ənənə halını alıb. Bu qəbullarda dövlətimizin başçısı etimad göstərib yeni vəzifələrə təyin etdiyi məmurların gələcək fəaliyyətlərinin bir növ yol xəritəsini cızır. Prezident İlham Əliyev noyabrın 12-də Ceyhun Cəlilovu Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi, Elxan İbrahimovu Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı, Natiq Ağayevi Balakən Rayon İcra Hakimiyyətinin başçısı, Orxan Mürsəlovu Göyçay Rayon İcra Hakimiyyətinin başçısı, Elvin Paşayevi Qax Rayon İcra Hakimiyyətinin başçısı, Vüqar Novruzovu Göygöl Rayon İcra Hakimiyyətinin başçısı, Elşən Həsənlini Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunmaları ilə əlaqədar qəbul edib və onlara Özünün dəyərli tövsiyələrini verib.**

## Rəhbər vəzifədə çalışan məmurlar daim insanlarla bir yerdə olmalıdırlar

Ölkəmizdə Prezident İlham Əliyevin timsalında xalqa bağlı olan, öz fəaliyyətində cəmiyyətdən gələn sosial sifarişləri mütləq qaydada nəzərə alan və ardıcıllıqla həyata keçirən rəhbər obrazı formalaşıb. Dövlətimizin başçısının son iyirimi ildən artıq müddətdə həyata keçirdiyi daxili siyasət xəlqi mahiyyət daşıyır, sırf Azərbaycan xalqının maraqlarına xidmət edir. Bu da respublikamızın uğurlarının təməlində dayanan əsas şərtlərdən biridir. Xalq - Prezident İlham Əliyev vəhdəti sayəsində ölkəmiz zirvələrə yüksəlib. 44 günlük Vətən müharibəsində ölkəmiz müstəqillik tarixində ən böyük uğurunu qazandı. Şanlı Zəfər sayəsində otuz illik işğala son qoyuldu, respublikamızın ərazi bütövlüyü, sonrakı mərhələdə isə suverenliyimiz tam təmin olundu. Azərbaycan bu tarixi Qələbəni məhz dövlət - ordu - xalq vəhdəti sayəsində qazandı. Xalqın öz Liderinə dərin inamı, cəmiyyətin müxtəlif təbəqələrinin orduya dəstək göstərməsi, hətta müxtəlif siyasi partiyaların həmrəylik təşəbbüslərindən çıxış etmələri bizə əsas ümummilli məqsədimizə çatmağa imkan verdi. Postmüharibə mərhələsində isə Azərbaycan dövlət və cəmiyyət olaraq Prezident İlham Əliyevin müəyyənləşdirdiyi yeni ümummilli ideyanın - Qarabağa Böyük Qayıdışın reallaşdırılması məqsədilə səfərbər olub. Respublikamızda bərqərar olan yüksək vətəndaş məmnunluğu, sıx həmrəylik milli gücü artıran və bizi yeni-yeni uğurlara doğru aparan çox mühüm amil qismində çıxış edir ki, bunun da təməlində Prezident İlham Əliyevin müəyyənləşdirdiyi siyasət dayanır. Prezident İlham Əliyev kabinet lideri deyil. O, tez-tez birinci xanım Mehriban Əliyeva ilə birlikdə ölkənin regionlarına, o cümlədən də işğaldan azad olunmuş ərazilərə səfərlərə gedir. Bu səfərlər izsiz ötüşmür. Dövlətimizin başçısı bəhs olunan səfərlər çərçivəsində bir qayda olaraq yerli ictimaiyyət nümayəndələrri ilə görüşür, onların arzu və istəklərini öyrənir, çatışmazlıqlarla, problemlərlə maraqlanır. Səmimi atmosferdə keçən belə görşlar insanlarda dövlətə inamı artırır, xüsusilə də gənclərdə vətənpərvərlik, milli qürur hisslərini gücləndirir. Eyni zamanda, yerlərdə qaldırılan məsələlər mütləq qaydada qısa müddətdə həllini tapır.

Dövlətimizin başçısının şəxsi nümunəsində yaratdığı bu model ölkənin hər yerində və istisnasız olaraq bütün səviyyələrdə yayılmalı və məmurların fəaliyyət meyarına çevrilməlidir. Prezident İlham Əliyevin etimad göstərərək yüksək vəzifələrə təyin etdiyi məmurların əsas işi xalqa xidmət göstərmək olmalıdır. Artıq hansısa bir vəzifənin kabinetlərdən icra edilməsi dövrü Azərbaycan üçün bir keçmişdir. Tələb belədir ki, məmurlar daim insanlarla bir yerdə olmalı , özlərini onlardan üstün tutmamalı, şəxsi mənafe güdməməlidirlər. Prezident İlham Əliyevin qəbuldakı çıxışında bildirdiyi kimi, əfsuslar olsun ki, bəzi hallarda məmurlar özlərini cəmiyyətdə düzgün apara bilmirlər, ifrat dərəcədə təkəbbürlülük göstərirlər, özlərini hamıdan üstün tutmağa çalışırlar və beləliklə, həm öz nüfuzlarını itirirlər, eyni zamanda, dövlətimizə, dövlətin siyasətinə də ləkə vurmuş olurlar. “Mən hər dəfə bölgələrə rəhbər vəzifələrə şəxsləri təyin edəndə verdiyim tapşırıqlar onlar üçün əsas iş prinsipləri olmalıdır - ilk növbədə, xalqa xidmət etmək, xalqla bir yerdə olmaq. Rəhbər vəzifədə çalışan hər bir şəxs, hər bir məmur təvazökar olmalıdır. Həyatda, məişətdə özü, onun yaxın qohumları özlərini elə aparmalıdırlar ki, bizim ümumi işimizə heç bir irad tutulmasın”, - deyə dövlətimizin başçısı vurğulayıb.

## Heç bir qanunsuz hərəkət nəticəsiz qalmayacaq

Müstəqil Azərbaycanın son illərdə sosial-iqtisadi sahədə qazandığı qibtəolunacaq uğurlara təkan verən amillər sırasında ölkə Prezidenti İlham Əliyevin siyasi iradəsi sayəsində idarəetmədə şəffaflığın təmin edilməsini, cəmiyyətdə müasir düşüncə tərzinin təzahürü kimi innovativ təşəbbüslərə geniş meydan verilməsini, institusional islahatlar həyata keçirilməsini, azad rəqabətlilik mühitinin təmin olunmasını, korrupsiya və bu kimi digər təzahürlərə qarşı səmərəli mübarizə aparılmasını xüsusi vurğulamaq lazımdır.

İdarəetmədə şəffaflığın maksimum dərəcədə təmin olunması və korrupsiyaya qarşı prinsipial mübarizə aparılması Azərbaycan dövlətinin strateji hədəflərindən biri kimi müəyyənləşdirilib. Dövlətin prinsipial məsələ kimi, korrupsiyaya qarşı mübarizəyə münasibətdə güclü siyasi iradə nümayiş etdirməsi, bu sahədə sistemli tədbirlərin gücləndirilməsi ölkənin milli inkişafının sürətlənməsinə gətirib çıxarır. Korrupsiyaya qarşı təsirli və sistemli mübarizə azad rəqabət mühitinin formalaşmasına, şəffaflığın təmin olunmasına, iqtisadiyyatın sürətli inkişafına stimul verir, eyni zamanda, sosialyönümlü islahatların dərinləşməsinə səbəb olur.

Korrupsiyaya qarşı mübarizədə əldə edilən nəticələr ilk növbədə Azərbaycan Prezidentinin siyasi iradəsi və dövlət orqanları qarşısında qoyduğu konkret vəzifələr, korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən kompleks və davamlı siyasətin real nəticəsidir. Acıq Hökumətin təşviq edilməsi və Korrupsiyaya qarşı mübarizə üzrə Milli Fəaliyyət Planları, elektron xidmətlərin təşkili və ardıcıl şəkildə təkmilləşdirilməsi, “ASAN Xidmət” mərkəzlərinin yaradılması və səmərəli fəaliyyətinin təmin edilməsi, korrupsiyaya qarşı mübarizə sahəsində cinayət təqibinin gücləndirilməsi və Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin fəaliyyəti, daxili işlər orqanlarında həyata keçirilmiş islahatlar və digər tədbirlər korrupsiyaya qarşı mübarizə sahəsində ciddi uğurlar əldə edilməsini şərtləndirən amillərdir.

Təəssüflər olsun ki, dövlətin qətiyyətli siyasi iradəsinə rəğmən, hələ də yerlərdə bəzi məmurlar əyri yollara qurşanırlar, ciblərini güdürlər və korrupsiya hallarına yol verirlər. Bu yolun axırı yoxdur. Ölkəmizdə rüşvətxorluğa qarşı mübarizə dönməz hal alıb və neqativ halların əhatə dairəsi getdikcə daralır. Dövlətimizin başçısı qəbulda vacib bir məqama diqqət çəkib. Bildirildiyi kimi, vaxtilə bizim bölgələrimizdə proseslərin mənfi istiqamətdə getməsinin səbəbi də məhz mərkəzi icra orqanlarındakı bəzi məmurların xoşagəlməz hərəkətləri və tapşırıqları idi. Artıq o məmurlardan, necə deyərlər, əsər-əlamət qalmayıb. Azərbaycanda məmur korpusunda, xüsusilə mərkəzi icra orqanlarında aparılan kadr islahatları nəticəsində vəziyyət böyük dərəcədə sağlamlaşdırılıb. Dövlətimizin başçısının vurğuladığı kimi, Azərbaycan ictimaiyyəti yaxşı bilir ki, əyri yola gedən hər bir dövlət məmuru nəticədə məhkəmə, qanun qarşısında cavab verməli olurlar. “Ancaq o da cəmiyyət üçün tam aydındır ki, heç bir qanunsuz hərəkət nəticəsiz qalmayacaq. Ona görə sizdən tələbim, eyni zamanda, xoşagəlməz hallara qarşı ciddi mübarizə aparmaq, kadr siyasətində etibarlı, peşəkar və mənəvi cəhətdən təmiz kadrları seçmək, rəhbərlik edəcəyiniz bölgələrdə öz işinizlə mənim seçimimin düzgün olduğunu sübut etməkdir. Əks təqdirdə, əlbəttə ki, lazımi ölçülər götürüləcəkdir”. - deyə Prezident İlham Əliyev bildirib.

## Ölkə üzrə əsas infrastruktur layihələrinin icrası tamamlanıb

Son 20 ildən artıq müddətdə müstəqil Azərbaycanın qazandığı ən böyük uğurlardan biri yüksək səviyyəli müasir infrastruktur quruculuğu ilə bağlıdır. Bəhs olunan dövrdə intensiv şəkildə reallaşdırılan irimiqyaslı layihələr hesabına hazırda respublikamız infrastruktur təminatı baxımından dünyanın qabaqcıl ölkələri sırasına yüksəlib. Dövlət əsaslı vəsait qoyuluşu hesabına yaradılan infrastruktur obyektləri bundan sonra onilliklər boyu xalqımıza və dövlətimizə xidmət göstərəcək.

Əlamətdar haldır ki, respublikamızda infrastruktur quruculuğu Prezident İlham Əliyevin siyasi iradəsi əsasında davamlı səciyyə daşıyıyıb. Belə ki, bu sahəyə yönəldilən dövlət əsaslı vəsait qoyuluşu ilbəil artırılıb ki, bunun da sayəsində hər il ölkə miqyasında yeni infrastruktur layihələrinin uğurlu icrası təmin olunub. Qəbulda bildirildiyi kimi, hazırda bütün ölkə üzrə əsas infrastruktur layihələrinin icrası tamamlanıb və bu sahədə ciddi bir problem yoxdur. Statistika həqiqətən də çox qürurvericidir. Belə ki, 2003-cü ildən bəri ölkə ərazisində təxminən 20 min kilometr uzunluğunda avtomobil yolları tikilib və yaxud əsalı şəkildə yenidən qurulub. Bəhs olunan dövrdə respublikamızda I texniki dərəcəli avtomobil yollarının uzunluğu artırılaraq 938 km-ə çatdırılıb, 499 körpü və yol ötürücüləri, həmçinin 114 yeraltı və yerüstü piyada keçidləri inşa olunub. Hazırda ölkə ərazisində magistral yollar tamamilə müasir standartlara cavab verir. Şəhərlərarası yollar təmirlidir. Kənd yollarının tikintisi üçün hər il lazımi vəsait ayrılır.

Bəhs olunan dövrdə həyata keçirilən layihələr hesabına ölkə üzrə 15-dən çox şəhər və rayonda, o cümlədən Gəncə, Mingəçevir, Naftalan, Sumqayıt və Şirvan şəhərlərində, Abşeron, Ağdam, Ağstafa, Balakən, Beyləqan, Biləsuvar, Füzuli, Hacıqabul, Qazax və Ağsu rayonlarında qazlaşma səviyyəsi 100 faizə çatıb. Bütövlükdə, hazırda respublika üzrə qazlaşdırmanın səviyyəsi 95 faizdən yuxarıdır, hətta ucqar dağ kəndlərinin də qazlaşdırılması təmin olunub.

Qısa müstəqillik tarixində Azərbaycanın daxili imkanlar hesabına özünün enerji müstəqilliyini tam təmin etməsi son dərəcə böyük uğurdur. 2004-cü ilə qədər Azərbaycanda 3900 meqavat gücündə cəmi 9 elektrik stansiyası mövcud idi. Son 20 ildə isə respublikamız onlarla yeni elektrik stansiyası tikməyə və elektrik enerjisini idxal edən ölkədən ixracatçı ölkəyə çevrilməyə nail olub. Hazırda respublikamızda “yaşıl enerji”yə keçid dövrü başlayıb.

Respublikamızda, həmçinin böyük iqtisadi və sosial əhəmiyyət daşıyan su layihələrinin icrası da uğurla təmin edilir. Bura həm içməli su layihələri, həm də meliorativ tədbirlər daxildir. Bəhs olunan dövrdə reallaşdırılan içməli su və kanalizasiya layihələri ölkənin bütün bölgələrini əhatə edib və nəticədə, respublika üzrə əhalinin yüksək keyfiyyətli su ilə təchizatında dönüş yaranıb. Əgər 2004-cü ildə ölkədə fasiləsiz içməli su ilə təminat 26 faiz səviyyəsində idisə, hazırda bu göstərici 70 faizdən çoxdur. Ölkəmizdə regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramlarının uğurla icra edildiyi dövrdə bölgələrdə istifadə olunan torpaqların su təminatının yaxşılaşdırılması və yeni torpaqların əkin dövriyyəsinə cəlb edilməsi üçün dövlət əsaslı vəsait qoyuluşu hesabına çoxlu sayda layihələr reallaşdırılıb. Ümumi tutumu 470 milyon kubmetr olan Taxtakörpü, Şəmkirçay, Göytəpə, Tovuzçay kimi böyük su anbarlarının tikilib istifadəyə verilməsi sayəsində ölkənin icməli və suvarma suyu ilə təminatında geniş imkanlar yaranıb.

Sosial təyinatlı infrastruktur obyektlərinin, o cümlədən müasirr tipli məktəb binalarının inşası ölkənin bütün regionlarında təmin edilib. Hazırda Azərbaycanın əksər şəhərlərində müasir xəstəxanalar fəaliyyət göstərir. Ölkə üzrə 50-dək Olimpiya-idman kompleksinin istifadəyə verilməsi yeniyetmələrin, gənclərin idmana olan marağını artırıb.

Əlbəttə, bütün problemlərin tamamilə aradan qaldırıldığını söyləmək də doğru olmazdı. Tələb belədir ki, Azərbaycanın bölgələri bu gün ən yüksək standartlara cavab verməlidir. Prezident İlham Əliyev məmurlara tapşırıqlarını verərək bildirib ki, yerlərdə bu gün hələ də mövcud olan, insanları narahat edən məsələlər öz həllini tapmalıdır. Dövlətimizin başçısının prinsipial yanaşması belədir ki, burada sosial ədalət əsas prinsip kimi götürülməlidir. Hər bir bölgədə, hər bir kənddə insanlar görməlidir və bilməlidir ki, ədalət hər zaman üstünlük təşkil edir.

## Məşğulluqla bağlı məsələlər mühüm prioritetlərdən biridir

Aparılan uğurlu siyasətin nəticəsidir ki, bu gün Azərbaycan dünyada müsbət demoqrafik mühitə malik azsaylı ölkələrdən biridir. Bu, böyük uğur olmaqla yanaşı, həm də əmək qabiliyyətli insanların məşğulluğunun təmin edilməsi baxımından ciddi məsuliyyət yaradır. Prezident İlham Əliyev bildirib ki, bölgələrdə əlbəttə ki, məşğulluqla bağlı məsələlər əsas prioritetlərdən biridir. Ötən dövrdə respublikamızda regional inkişaf proqramlarının icrası çərçivəsində məşğulluqla bağlı çox böyük işlər görülüb. Məlumdur ki, respublikamızda kənd təsərrüfatında əmək tutumu və gəlir imkanları böyük olan sahələr məqsədyönlü şəkildə inkişaf etdirilir. Həmçinin respublikamızda yeni sənaye xəritəsi formalaşdırlır. Artıq ölkə üzrə 9 sənaye parkı və bölgələrdə bir neçə sənaye məhəlləsi uğurla fəaliyyət göstərir. Eyni zamanda, respublikamızda sahibkarlıq mühitinin optimallaşdırılması istiqamətində davamlı tədbirlər görülür və sahibkarlara dövlət dəstəyi gücləndirilir. Qeyd edək ki, indiyədək Sahibkarlığın İnkişafı Fondu tərəfindən müxtəlif layihələrin icrasına güzəştli şərtlərlə 2 milyard manatdan çox vəsait yönəldilib. Paralel şəkildə, özünüməşğulluq proqramı uğurla icra edilir. Artıq on minlərlə insan bu proqramla əhatə olunub. Görülən bu və digər tədbirlərin nəticəsi olaraq ölkə üzrə bütövlükdə, 2,2 milyon iş yerinin yaradılması təmin olunub və işsizliyin səviyyəsi 5 faizədək azaldılıb.

Bununla belə, hələ də regionlardan əmək qabiliyyətli insanların paytaxta və digər iri şəhərlərə axın etməsinin səviyyəsi yüksək olaraq qalır. Əlbəttə ki, bunun bir səbəbi bütün dünyada olduğu kimi, iri şəhərlərdəki rahatlıqlar və daha geniş perspektivlərdir. Ancaq digər bir səbəb isə iş yerlərinə olan tələbatın tam ödənilməməsidir. Halbuki, yerlərdə sahibkarlığı, iqtisadiyyatın gəlirli sahələrini, o cümlədən də turizmin inkişafına daha yaxşı şərait yaratmaqla artan tələbatı qarşılamaq mümkündür. “Ona görə yerlərdəki rəhbərlərdən də tələbim odur ki, iş yerlərinin yaradılmasına çalışsınlar, iş adamlarına şərait yaratsınlar. Təbii ki, onlara dəstək vermək lazımdır. Çünki yerli istehsalın inkişafı həm məşğulluq məsələlərini təmin edir, eyni zamanda, yerli istehsalı da gücləndirir. Kənd təsərrüfatı və turizmlə bağlı son müddət ərzində dövlət xətti ilə bir çox önəmli addımlar atılmışdır. Bunu daha da genişləndirmək lazımdır. Xüsusilə turizm üçün cəlbedici olan bölgələrdə bu, iqtisadiyyatın, bölgə iqtisadiyyatının kənd təsərrüfatı ilə birlikdə əsas amilini təşkil etməlidir”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

***Mübariz ABDULLAYEV***

# Dünya Azərbaycanın sülh gündəliyini alqışlayır

## Zəfər qüruru, güc nümayişi, dost sevinci



Müzəffər Ordumuzun Vətən müharibəsində qazandığı parlaq Qələbə hər bir azərbaycanlının sonsuz qürur mənbəyidir. Bu müharibədə Azərbaycan təkcə işğalçı Ermənistanı məğlub etmədi, həm də ikili standartlar ortaya qoymaqla bu ölkənin müdafiəsinə qalxan xarici güclər və dünya erməniliyi üzərində qələbə çaldı. Qələbəni heç kim bizə hədiyyə etməyib, onu Müzəffər Liderimiz Prezident İlham Əliyevin rəhbərliyi ilə igid oğullarımız misilsiz şücaətləri ilə qazanıblar. Buna görə də tariximizdə əbədi qalacaq Qələbənin sevincini yaşamağa xalqımızın mənəvi haqqı var.

Azərbaycan şanlı Zəfərimizin 5 illiyini noyabrın 8-də Azadlıq meydanında keçirilən əzəmətli hərbi paradla təntənəli şəkildə qeyd etdi. Paradda müxtəlif qoşun növlərinin, o cümlədən də xüsusi təyinatlıların keçidi baş tutdu, ordumuzun silahlanmasına cəlb olunan müasir silahlar nümayiş etdirildi, şahinlərimiz əsrarəngiz çıxışlar etdilər. Parada, həmçinin qardaş ölkələrin - Türkiyənin və Pakistanın hərbiçiləri qatıldılar. Tədbirdəki çıxışında Prezident İlham Əliyev Qələbəmizin tarixinə ekskurs etməklə bir sıra mesajlarını da diqqətə çatdırdı.

Parad bir tərəfdən xalqımızın Qələbə sevincinin ifadəsi idi. Digər tərəfdən də, dünya Azərbaycanın gücünün bir daha şahidi oldu. Bir çoxları düşünürdülər ki, Azərbaycan Vətən müharibəsindəki Qələbə ilə kifayətlənəcək, daha Ordusunun gücləndirilməsi qayğısına qalmayacaq. Belə olmadı, müharibə başa çatandan sonra da Azərbaycan dayanmadı və ölkəmizdə Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi əsasında ordu quruculuğunun yeni mərhələsi başladı. Parad bir daha göstərdi ki, bu gün Azərbaycan Ordusu 2020-ci ildəkindən daha güclü və qüdrətlidir.

Azadlıq meydanında keçirilən hərbi parad daha bir reallığı ortaya qoydu. Bu reallıq da güclü orduya və güclü Liderə malik Azərbaycanın dünyada qazandığı böyük nüfuzdur. Paradda Pakistan və Türkiyə ali nümayəndə heyətlərindən əlavə, bir sıra digər ölkələrdən gələn yüksəksəviyyəli qonaqlar da iştirak etdilər. Bu sırada Slovakiya Baş nazirinin müavini - müdafiə naziri, Səudiyyə Ərəbistanının müdafiə nazirinin müavini, Serbiyanın Baş qərargah rəisi, Qırğızıstanın müdafiə naziri, Qazaxıstanın müdafiə naziri, Özbəkistanın müdafiə nazirinin müavini və başqaları yer alırdılar. Bu o deməkdir ki, dost ölkələr Azərbaycanın ədalətli müharibədə qazandığı Qələbəyə sevinirlər və dünya ölkəmizin sülh gündəliyini qəbul edir.

*Mübariz FEYİZLİ*

## Ədalətin bərpasına aparan yol...

**Azərbaycan tarix boyu sülhün, ədalətin və qonşuluq münasibətlərində qarşılıqlı hörmətin tərəfdarı olub. Xalqımız heç vaxt müharibə, işğal, təcavüz yolu seçməyib. Bizim gücümüz ədalətdən, iradəmiz haqdan qaynaqlanıb. Lakin bəzən sülhün dəyəri yalnız müharibənin gətirdiyi dərslərlə anlaşılır - Azərbaycan da məhz bu reallığı yaşadı. Daha doğrusu, yaşamaq məcburiyyətində qaldı... Uzun illər işğal altında qalan torpaqlarımız üçün diplomatik yolla, beynəlxalq hüququn çərçivəsində ədalət axtardıq. BMT qətnamələrinə, beynəlxalq təşkilatların çağırışlarına baxmayaraq, Ermənistan işğalçı siyasətindən əl çəkmədi. Onlar hətta Azərbaycan xalqının səbrini zəiflik, sülhpərvərliyini acizlik kimi dəyərləndirdilər. Halbuki bu, sülhə inamın, ədalətə sadiqliyin göstəricisi idi. Amma hər bir səbrin son həddi, hər bir dözümün bir dönüş nöqtəsi var. Azərbaycan da artıq bu döngəyə çatmışdı. 30 ildən çox davam edən sülh təşəbbüsləri nəticə vermədi, əksinə, Ermənistanın revanşist iddialarını daha da artırdı. Sülh istəklərinə cavab olaraq təxribatlar, sərhəd hücumları və yeni ərazi iddiaları ilə üz-üzə qaldıq. Azərbaycan dövləti dəfələrlə bəyan etmişdi: "Əgər sülh yolu ilə nəticə əldə olunmasa, biz torpaqlarımızı hərbi yolla azad edəcəyik". 2020-ci ilin payızında bu qərar reallığa çevrildi. Vətən müharibəsi ədalətin bərpası, sülhün və haqqın qorunması uğrunda aparılan mübarizə kimi tarixə yazıldı. O günlərdən artıq 5 il ötür - artıq Azərbaycan qalib dövlətdir: ədalətin, haqqın və sülhün qalibi. Ermənistan isə ən azından bundan sonrakı mərhələdə reallıqlardan düzgün nəticə çıxarmalıdır - tarixin tək bir ibrəti var: sülhü gecikdirmək mümkündür, amma onun qarşısını almaq, əsla...**







### Ermənistan sülh çağırışlarını eşitmədi...

Azərbaycan müstəqilliyini bərpa etdiyi ilk illərdən etibarən regionda sülhün, ədalətin və sabitliyin bərqərar olmasını qarşısına məqsəd qoymuşdu. Xalqımız 30 ilə yaxın müddətdə sülhün bərpası üçün diplomatik, hüquqi və beynəlxalq vasitələrdən istifadə etdi. Hətta torpaqları işğal altında olduğu, bir milyondan artıq soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətində yaşadığı bir zamanda belə Azərbaycan beynəlxalq hüququn prinsiplərindən kənara çıxmadı. Azərbaycanın istəyi isə sadə və qanunauyğun idi - ədalətin təmin olunması, BMT-nin qətnamələrinin icrası, torpaqlarımızın qeyd-şərtsiz azad edilməsi. Amma Ermənistan və onun havadarları bu çağırışlara qulaq asmadılar. Əksinə, Azərbaycanı zəif görüb, vurğulandığı kimi, onun sülhpərvərliyini acizlik kimi qələmə verdilər. İşğalçı dövlət 30 il ərzində beynəlxalq hüquqa meydan oxuyaraq yeni reallıqlar yaratmağa, status-kvonu möhkəmləndirməyə çalışdı. Onlar düşünürdülər ki, Qarabağ münaqişəsi əbədi olaraq davam edəcək, Azərbaycan isə bu vəziyyətlə barışacaq.

Lakin tarixin gedişatı hər zaman ədalətin tərəfində olur. Ermənistanın təkəbbürü, öz gücünü şişirtməsi və məğlubedilməzlik mifinə inanması nəticədə onları əsl həqiqətlə üz-üzə dyanmağa məcbur etdi. Nikol Paşinyanın hakimiyyətə gəlişindən sonra münaqişənin tənzimlənməsinə ümidlər yaransa da, tam əksi yaşandı - yeni ərazi iddiaları meydana çıxdı, "yeni müharibə - yeni torpaqlar" şüarı səsləndirildi. Bu isə artıq sülh prosesinə son nöqtəni qoyurdu.

Azərbaycan belə bir təhdid qarşısında susa bilməzdi. Dövlətimiz açıq şəkildə bəyan etdi ki, əgər sülh danışıqları nəticə verməsə, onda öz torpaqlarını hərbi-siyasi yolla azad edəcək. 2020-ci ilin payızında başlayan Vətən müharibəsi məhz bu haqlı mövqedən doğdu. Azərbaycan 44 gün ərzində təkcə torpaqlarını azad etmədi, həm də beynəlxalq hüququn prinsipial şəkildə bərpasını təmin etdi. Noyabrın 8-də Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi paradda çıxış edən Prezident İlham Əliyev bildirib ki, Ermənistan düzgün nəticə çıxara bilməmişdi və İkinci Qarabağ müharibəsi ərəfəsində daha da azğınlaşmışdı, bizə qarşı yeni ərazi iddiaları ilə çıxış etməyə başlamışdı: "Onlar bizi yeni müharibə ilə hədələyirdilər. Hətta deyirdilər ki, onlar yeni torpaqlar uğrunda yeni müharibə aparacaqlar və Azərbaycanı tam işğal edəcəklər".

### Azərbaycanın mövqeyi dəyişməzdir

Azərbaycanın heç vaxt kiminsə torpağını ələ keçirmək kimi bir məqsədi olmayıb. Bizim siyasətimiz sülhə, sabitliyə və əməkdaşlığa əsaslanır. Azərbaycan torpaqları azad edərkən belə dağıdıcı deyil, qurucu güc kimi çıxış etdi. Müharibədən dərhal sonra azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinə başlanması, "Böyük Qayıdış" proqramının həyata keçirilməsi bunun bariz nümunəsidir.

Azərbaycan bütün dünyaya göstərdi ki, ədalət uğrunda mübarizə həm də sülh uğrunda mübarizədir. Dövlət başçısı İlham Əliyev dəfələrlə bəyan edib ki, regionda dayanıqlı sülhün təmin olunması üçün Ermənistan real addımlar atmalı, ədalət prinsiplərinə əsaslanan sülh müqaviləsini imzalamalıdır. Amma təəssüf ki, bu gün də İrəvanda revanşist qüvvələr, xarici təsir dairələrinin kuklaları sülhün reallaşmasına mane olmağa çalışır. Azərbaycan isə mövqeyində qətidir. Biz sülh istəyirik, amma sülh zədələtin təntənəsi olmalıdır. Biz gücümüzü Vətən müharibəsində göstərdik, dövlətçiliyimizin, xalqımızın birliyinin gücü sayəsində qalib gəldik. Bu gün Azərbaycan regionun aparıcı gücüdür və onun sülh təşəbbüsləri beynəlxalq səviyyədə dəstəklənir.

### Separatizmin sonu: miflərin dağılması və...

Azərbaycan dövlətinin siyasi xəttində separatizmə qarşı dözümsüzlük mühüm yer tutur. Bizim tariximiz, milli yaddaşımız və dövlətçilik təcrübəmiz bunu sübut edir. Qarabağda yaradılmış qondarma regim illərlə xarici dairələrdən aldığı dəstək hesabına özünü "müstəqil dövlət" kimi təqdim etməyə çalışırdı. Bu qurum Ermənistanın, eləcə də bəzi xarici dairələrin aləti idi. Onlar düşünürdülər ki, Azərbaycanın hüquqi və beynəlxalq təsir imkanlarını məhdudlaşdırmaqla regionda daimi bir ocağı saxlaya biləcəklər.

Separatçıların təbliğat maşını o qədər azğınlaşmışdı ki, artıq reallıq hissini itirmişdilər. Özlərini "güclü ordu", "mübariz xalq" kimi qələmə verirdilər. Ermənistanda isə bu uydurma miflər dövlət ideologiyasına çevrilmişdi. Onların əsas hədəfi Azərbaycan xalqının iradəsini sındırmaq, məğlubiyyətlə barışmasını təmin etmək idi. Prezident İlham Əliyev nitqində bildirib ki, deyirdilər ki, onların tankları Bakı küçələrində olacaq: "Deyirdilər ki, onlar Bakıda çay içəcəklər. Əslində, onların bu arzuları həyata keçdi. Onları biz gerçəkləşdirdik. Onların tankları bu gün Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Erməni hərbi cinayətkarları bu gün Bakıda məhkəmə qarşısında cavab verirlər və istintaq təcridxanasında Azərbaycan çayını içirlər".

2020-ci ilin Vətən müharibəsi bütün bu mifləri yerlə-yeksan etdi. Azərbaycan ordusu illərlə hazırlanan azadlıq planını mükəmməl şəkildə icra etdi. Prezident, Ali Baş Komandan İlham Əliyevin liderliyi ilə Azərbaycan ordusu həm taktiki, həm də mənəvi üstünlüyü ələ aldı. 2023-cü iliin sentyabrında isə cəmisi 24 saat çəkən əməliyyat nəticəsində separatçı rejim darmadağın edildi - "Bakıda çay içəcəyik" deyənlər bu gün təcridxanalarda Azərbaycan ədalətinin qarşısında cavab verirlər. Bu, təkcə hərbi qələbə deyildi - bu, ideoloji və mənəvi qələbə idi. Azərbaycan sübut etdi ki, separatizm XXI əsrdə yaşaya bilməz, beynəlxalq hüquq və ərazi bütövlüyü prinsipləri dəyişməzdir. Dünya birliyi bu gün Azərbaycanın yaratdığı reallığı qəbul edir. Separatizmin bütün formaları - istər Qarabağda, istərsə də dünyanın digər bölgələrində - bu qələbədən sonra legitimliyini itirib.

### Sülh reallığa və həqiqətə söykənməlidir...

Ermənistan uzun illər boyu Azərbaycanla sülhə gəlmək imkanı qazansa da, onu dəyərləndirə bilmədi. Azərbaycanın səbrini, sülhpərvərliyini yanlış anladı. Amma tarix göstərdi ki, ədaləti təxirə salmaq onun qarşısını almaq deyil. Azərbaycan haqq mübarizəsini sona çatdırdı, ərazi bütövlüyünü bərpa etdi və regionda yeni reallıq yaratdı. Bu gün də Azərbaycan eyni prinsipial mövqedədir: sülh, əməkdaşlıq və qarşılıqlı hörmət üzərində qurulmuş gələcək. Ermənistan isə nəhayət anlamalıdır ki, sülhün alternativi yoxdur. Azərbaycan qalib ölkə olaraq ədalətin, inkişafın və sabitliyin yolundadır - və bu yol artıq geri dönüşü olmayan yoldur. Bunun üçün son addımı atmalı - özünün konstitusiyasında müvafiq dəyişikliyi etməli və sülhə imza atmalıdır...

*P.SADAYOĞLU*




# Ölkəmiz beynəlxalq nəqliyyat qovşağına çevrilir...

## Asiyadan Avropaya qədər uzanan böyük coğrafiyada dayanıqlı rifah təmin olunacaq

Azərbaycanın öz ərazisindəki nəql tranzitləri vasitəsilə yüklərin Ermənistana çatdırılmasına icazə verməsi rəsmi Bakının sülhpərvərliyinin və humanizminin mühüm göstəricisi olmaqla yanaşı, regionda yeni əməkdaşlıq formatı yaratmaq səylərinin tərkib hissəsidir. Baş verən proseslər ona dəlalət edir ki, Azərbaycanın sülhyaratma niyyəti region üçün öz bəhrələrini verməkdədir. Bölgədə dəyişən geoiqtisadi mənzərəni dəyərləndirən nüfuzlu ekspertlər də hesab edirlər ki, Azərbaycanın açdığı yaşıl işıq Ermənistanı qlobal inteqrasiya zəncirinə qoşmaq üçün əsil fürsətlər yaradır.

### Bakı İrəvana nəqliyyat qapısı açır

Dünya iqtisadiyyatı və siyasəti institutunun eksperti, qazaxıstanlı politoloq Yersultan Yenseytovun sözlərinə görə, yeni çağırışlar fonunda dövlətlər gələcəyin inkişaf vəhdətini qurmaq üçün indi daha çox təşəbbüskarlılq edir. Məsələn, Qazaxıstan öz iqtisadiyyatında böyük islahatlar həyata keçirərək qeyri-neft sektorunu inkişaf etdirmək və dünya iqtisadiyyatına inteqrasiya olunmaq istiqamətində işlər aparır, tranzit layihələrinə xüsusi önəm verir. Qazaxıstan Şərqlə Qərbi birləşdirən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) və onun aparıcı seqmenti olan Zəngəzur dəhlizinin inkişafı bu baxımdan daha strtaeji maraq kəsb edir. Orta Dəhlizdən istifadə edən Qazax hökuməti 2024-cü ildə dəhliz vasitəsilə Avropaya 2 milyon ton mal ixrac edib. Hazırda bu dəhlzinin Zəngəzurə inteqrasiyasında fəal mövqe tutan rəsmi Astana Azərbaycanın həyata keçirdiyi infrastruktur layihələrinin tamamlanmasını gözləyir. İşlər yekunlaşdıqdan sonra Qazaxıstan bilavasitə öz nəqliyyat sistemlərini Zəngəzura inteqrasiya edəcək və öz yüklərini Ermənistana da bu xətt üzrə çatdıra biləcək. Azərbaycan Qazaxıstan mallarının Ermənistana və Gürcüstana nəqlində yeni tranzit körpüsü olacaq.

Y. Yenseytovun qənaətinə görə, Azərbaycanın dünyada ən sabit ölkələrdən biri olması yüklərin böyük bir coğrafiyada rahat və təhlükəsiz daşınması üşün böyük əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Vaşinqtonda ABŞ Prezidenti Donald Trampla görüş zamanı ölkəsinin Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu (TRIPP) adlanan Zəngəzurla daşınmasında maraqlı olduğunu bildirib. K.J .Tokayev qeyd edib ki, Azərbaycan enerji ehtiyatları, əlverişli coğrafi mövqeyi, həmçinin Prezident İlham Əliyevin strateji vizyonu və siyasi iradəsi nəzərə alınmaqla, regional nəqliyyat, logistika və enerji gücünə çevrilib, Cənubi Qafqazda və kənarda mühüm körpü rolunu oynayır. Azərbaycan Böyük Orta Asiyanın təbii bir hissəsidir. Bu baxımdan TRIPP Orta Dəhlizin gələcək inkişafını sürətləndirə və regional nəqliyyat əlaqələrini gücləndirə bilər.

### Cənubi Qafqazda yeni əməkdaşlıq formalaşır

Azərbaycanın təşəbbüsü ilə ərsəyə gələn enerji, nəqliyyat, logistika layihələri qlobal miqyasda nümunəvi əməkdaşlıq modelinə çevrilməklə Asiyadan Avropaya qədər uzanan böyük coğrafiyada dayanıqlı rifahı təmin etməkdədir.

BTC, BTQ, TANAP, TAP, Şimal-Cənub, Şərq-Qərb, Orta Dəhliz kimi nəhəng enerji və nəqliyyat arteriyalarında lider dövlət kimi yer alan respublikamızın yaratdığı müasir infrastruktur, o cümlədən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası və yenilənən kommuniksiya qovşaqları bütün tərəfdaş ölkələr üçün yüksək tranzit səmərəliliyini artırır. Orta Dəhliz üzrə tranzit yük daşımalarının həcmi ildən-ilə artır.

Öz ərazi bütövlüyünü təmin etdikdən sonra Azərbaycanın səyləri ilə regionda uzunmüddətli sülh, sabitlik və dayanıqlı inkişafın əsası qoyulub və yeni iqtisadi rifah arxitekturası formalaşıb. Hazırda Azərbaycanın mükəmməl iqtisadi diplomatiyası sayəsində Cənubi Qafqaz bölgəsində yeni əməkdaşlıq landşaftı formalaşır, xarici investorların azad ərazilərdə başlatdığı qeyri-neft proqramları, "yaşıl enerji" layihələri, qeyri-neft sahələrinin, turizm potensialının daha da güclənməsinə istiqamətlənmiş təşəbbüslər regionun iqtisadi rifah mənzərəsini dəyişir, böyük iqtisadi əməkdaşlıq koalisiyası qurulur, habelə Orta Dəhlizin ən mühüm xətti olan Zəngəzurun açılmasına yönəlik addımlar uzunömürlü rifaha möhkəm zəminlər yaradır.

### Zəngəzur dəhlizi regional bağlantıları möhkəmləndirəcək

Azərbaycan və Qazaxıstan uzun illərdir ki, nümunəvi enerji əməkdaşlığı platforması qurub, habelə nəqliyyat-logistika sahəsində region ölkələri üçün yeni cığırlar açır. Həmin nəhəng marşrutlardan biri kimi Orta Dəhlizin xüsusi strateji yerini qeyd etmək olar. 2022-ci ildə Aktauda Türkiyə, Azərbaycan və Qazaxıstan Orta Dəhlizin inkişafına dair Yol Xəritəsi sənədini imzalayıb ki, bu sazişə əsasən, dəhlizin növbəti dayanacağı Zəngəzur xətti hesab edilir. Bakı Beynəlxalq Dəniz Ticarət limanı, Bakı-Tbilisi-Qars dəmir yolu və Zəngəzur dəhlizinin fəaliyyəti üçün hazırda həyata keçirilən infrastruktur layihələri Azərbaycanı beynəlxalq nəqliyyat qovşağına çevirir. Nəticədə Çindən Mərkəzi Asiya (Qazaxıstan) ilə Azərbaycana uzanacaq nəhəng komunikasiya Avropa ölkələri arasında nəqliyyat əlaqələrinin şaxələndirilməsini tam təmin etməklə, birgə kommunikasiya bağlantısı Ermənistanı da bu dəhlizə qoşacaq.

Yeri gəlmişkən, Ermənistanın baş naziri Nikol Paşinyan bildirib ki, hazırda TRIPP layihəsinin əsas hissəsi üzərində işlər davam etdirilir, layihənin məzmunu formalaşdırılır. Layihə üzrə bütün detallar bu ilin sonuna qədər müzakirə olunacaq və gələn ilin birinci yarısında yekun variant kağız üzərində təqdim ediləcək. Bundan sonra tikinti işlərinə başlanılacaq ki, bu da 2026-nın ikinci yarısında planlaşdırılır. Baş nazir bu layihənin Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinə inteqrasiya olunacağını da xatırladıb.

Göründüyü kimi qlobal nəqliyyat xətti olan Orta Dəhlizin növbəti qovşağına çevrilməklə Zəngəzur dəhlizi böyük bir coğrafiyada beynəlxalq yükdaşımalar üçün tranzit imkanlarını birləşdirəcək. Azərbaycan Prezidenti də bəyan edib ki, yaxın gələcəkdə Zəngəzur dəhlizi həm Orta Dəhlizin, həm də Şimal-Cənub dəhlizinin növbəti mühüm seqmentinə çevriləcək, sülhü, çoxtərəfli tərəfdaşlığı möhkəmləndirəcək və Azərbaycan sərhədinin şərqində, qərbində, şimalında və cənubunda yerləşən yaxın və uzaq qonşularımıza fayda gətirəcək.

### Vaşinqton regional kommunikasiya quruculuğunda fəallığını artırır

Göründüyü kimi çoxvektorlu nəqliyyat siyasəti Azərbaycanın qlobal platformalarda layiqli yerini möhkəmləndirməklə, bu coğrafiyalarda yer alan ölkələrin iqtisadi klunda birləşdirməyə, əməkdaşlıq və rifahın yeni koordinatlarını müəyyən etməyə, yeni tərəfdaşları inteqrasiyaya cəlb etməyə hesablanıb. Prezidentin bəyan etdiyi kimi yaxın gələcəkdə Zəngəzur dəhlizi həm Orta Dəhlizin, həm də Şimal-Cənub dəhlizinin növbəti mühüm seqmentinə çevriləcək, sülhü, çoxtərəfli tərəfdaşlığı möhkəmləndirəcək və Azərbaycan sərhədinin şərqində, qərbində, şimalında və cənubunda yerləşən yaxın və uzaq qonşularımıza fayda gətirəcək.

Azərbaycan Orta Dəhlizin Zəngəzur seqmentini qlobal rifah alyansı kimi görür və bu nəhəng infrastrukturdan regionun bütün dövlətləri istifadə edərək ticarət əlaqələrini genişləndirəcək.

Bu qətiyyətli siyasi kurs sözsüz ki, ABŞ tərəfindən yüksək dəyərləndirilir. Vaşinqtonda keçirilən görüşdə Zəngəzur dəhlizinin müzakirə olunması bu nəqliyyat arteriyasının qlobal xarakter daşıdığını bir daha təsdiqləyir. Bu baxımdan ABŞ-ın Zəngəzur dəhlizini dəstəkləməsi də təsadüfi deyil. ABŞ Mərkəzi Asiyada qarşılıqlı faydalı əməkdaşlıq və praqmatik siyasət ilə Avrasiya məkanında əhəmiyyətli aktor olmaq niyyətindədir. Rəsmi Vaşinqton bu niyyətini axıcı sərmayələri və təmkinli diplomatiyası ilə reallaşdırır ki, bu da regionun bütün dövlətləri tərəfindən müsbət qarşılanır.

***ELBRUS CƏFƏRLİ***

# İpoteka mexanizmi təkmilləşdirilir

**Prezident İlham Əliyevin təsdiqlədiyi "İpoteka haqqında" qanuna əsasən, ipoteka mexanizmində bir sıra dəyişikliklər edilib. Dəyişikliklərə əsasən, ipotekaya dair tələblərin ödənilməsində üstünlük hüququnun mübadiləsi, müqavilənin notariat qaydasında təsdiq edilməsi və üstünlük hüququnun dövlət reyestrində qeydiyyata alınması təklif olunur. İpotekaya dair tələblərin ödənilməsində üstünlük hüququ ipoteka saxlayanlar arasında dəyişdirildikdə hüquqlar daşınmaz əmlakın dövlət reyestrində və daşınar əmlakın rəsmi reyestrində sənədlərin təqdim edildiyi gündən 3 iş günü müddətində qeydə alınacaq. Həmçinin ipotekaya dair tələblərin ödənilməsində üstünlük hüququ dəyişdirildikdə dövlət rüsumu üstünlük hüququnun keçdiyi ipoteka saxlayan tərəfindən ödəniləcək.**

### 56 mindən çox ipoteka krediti verilib

Hazırda nizamnamə kapitalı 1 milyard 153 milyon manata bərabər olan İpoteka və Kredit Zəmanət Fondu həm biznes, həm də vətəndaşların güzəştli kreditlərə əlçatanlığı üçün mühüm maliyyə mənbəyi rolunu oynayır. Davamlı olaraq nizamnamə kapitalını artıran bu təsisat daha çox ipoteka kreditlərini təklif etməklə, güzəştli şərtlərlə kredit təminatını icra edərək daha çox vətəndaşın güzəştli ipoteka kreditindən faydalanmasına imkan yaradır.

Qeyd edək ki, indiyədək Fond tərəfindən 56 min 149 ipoteka krediti verilib. Verilmiş ipoteka kreditlərinin məbləği isə 3 milyard 695 milyon manatdan çoxdur. Kreditlərin təxminən 1 milyard manatdan çoxu dövlət dəstəyinə ehtiyacı olan xüsusi kateqoriyaya aid şəxslərə verilmiş güzəştli ipoteka kreditləri təşkil edir. Həmin kateqoriya qrupunda son illərdə hərbi qulluqçulara verilən güzəştli ipoteka kreditinin maliyyələşdirilməsi dinamikası daha çox artır və onlara maliyyə dəstəyi göstərən müvəkkil bankların sayı da çoxalır. Ümumilikdə, ipoteka kreditlərindən faydalananların 70 faizə yaxını gənclər və gənc ailələrdir.

### Kiçik və orta biznes üçün zəmanət subsidiyaları

İpoteka kreditlərinin digər mühüm prioriteti biznesin maliyyə təminatını yaxşılaşdırmaqdır. Belə ki, iqtisadiyyatın tarazlı və dayanıqlı inkişafına nail olmaq, maliyyə sahəsində risklərin bölüşdürülməsinə əsaslanan kreditləşdirmə sistemini formalaşdırılmaq və biznesin kredit resurslarına çıxışını genişləndirmək məqsədilə 2018-ci ildən etibarən yeni maliyyə zəmanəti mexanizmi yaradılıb. Həmin mexanizm çərçivəsində sahibkarların investisiya layihələrinin güzəştli şərtlərlə maliyyələşdirilməsində zəmanət hüquqları İpoteka və Kredit Zəmanət Fonduna (İKZF) həvalə edilib. Fond sahibkarlıq subyektlərinə dövlət tərəfindən zəmanət və subsidiyaların verilməsində tənzimləyici rol oynayaraq kreditlər üzrə hesablanmış faizlərin bir hissəsini subsidiyalaşdırır. Biznes üçün yeni maliyyə dəstəyi aləti hesab edilən bu mexanizmin tətbiqi sayəsində sahibkarlıq subyektlərinin daha inamlı və etibarlı şəkildə maliyyələşdirməsi təmin edilib. İndiyə qədər zəmanət və subsidiya üzrə verilmiş kreditlərin məbləği 642 milyon manatı ötüb.

İndiyə qədər İpoteka və Kredit Zəmanət Fondunun zəmanəti ilə müvəkkil banklar tərəfindən sahibkarlara 642 milyon manat məbləğində kredit verilib ki, onun da 93 milyon manatı 2025-ci ilin n yanvar-sentyabr aylarının payına düşür. Zəmanət verilmiş kreditlərin orta müddəti 30 ay, sahibkarlıq kreditləri üzrə hesablanmış faizlərə subsidiyanın verilməsi hesabına sahibkarların ödəyəcəyi kreditlər üzrə faktiki illik faiz dərəcəsi 6,2 faiz, bir sahibkara ayrılan kreditin məbləği isə 30 min - 5 milyon manat civarında təşkil edib. Kreditlər sənaye məhsullarının istehsalı və emalı, kənd təsərrüfatı və qida sənayesi, tikinti sektoru, turizm və infrastrukturun inkişaf etdirilməsi ilə bağlı sahələrə, maşın və avadanlıq istehsalına, ticarət və xidmət sektoruna yönəldilib.

Fondun zəmanət və faiz subsidiyası hesabına sahibkarlara ayrılan kreditlər vasitəsilə maliyyələşən layihələr üzrə 6000-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulub.



### "Fitch Ratings" Fondun reytinqini "BBB-" səviyyəsində təsdiqləyib

Ölkəmizdə qeyri-neft sektorunun inkişafı, biznes və investisiya mühitinin əlverişliliyinin daha da artırılması, sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi, dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi əsas prioritetlərdən olduğundan fond qeyri-neft sektorunda fəaliyyət göstərən mikro və kiçik sahibkarların, eləcə də emitent şirkətlərin maliyyə vəsaitlərinə əlçatanlığının artırılması məqsədilə sahibkarlığa dəstək alətlərinin çeşidini də artırıb. Cari ildə iki yeni alətin - sahibkarların manatla aldıqları kreditlərə münasibətdə kredit portfelinin təminatı, həmçinin istiqrazlar üzrə biznes təmsilçilərinin öhdəliklərinə təminat mexanizmlərinin tətbiqinə başlanılıb.

Yeri gəlmişkən, dünyanın nüfuzlu reytinq agentliyi "Fitch Ratings" bu günlərdə Azərbaycan İpoteka və Kredit Zəmanət Fondunun emitent defoltunun uzunmüddətli reytinqlərini xarici və milli valyutada "BBB-" və "sabit" səviyyəsində təsdiqləyib ki, bu da ipoteka sektoruna olan inamın göstəricisidir. "Fitch" Fondun əlçatan mənzil təminatı sahəsində, həmçinin kiçik və orta biznesin (KOB) maliyyələşməsinin asanlaşdırılması yolu ilə biznesin inkişafına dəstək göstərilməsi istiqamətində mühüm funksiyalar yerinə yetirən bir qurum kimi qiymətləndirir.

### Yeni kredit çeşidlərinin maliyyələşdirilməsi

Ümumilikdə, biznesin maliyyə əlçatanlığının təmin edilməsi məqsədilə dövlətin güzəşt siyasətinin əsas məqsədi qeyri-neft sənaye sahələrinin inkişafı, kənd təsərrüfatı sahəsinin inkişafı üzrə istehsal yönümlü və logistik xidmət layihələrinin dəstəklənməsi, anbar komplekslərinin qurulması, turizmin inkişafında dövlətin dəstəkləyici rolunun artırılması, balıqçılıq və akvakultura təsərrüfatlarının yaradılması, "yaşıl", rəqəmsal inkişaf və innovasiya yönümlü sahələrə maliyyə qayğısının göstərilməsindən ibarətdir.

Bu baxımdan Fondla sahibkarlar arasında maliyyə vasitəçiliyinin daha da yaxşılaşdırılması üçün yeni inkişaf konsepsiyası hazırlanıb. Qarşıdakı strateji dövr ərzində kredit mexanizminin həm kəmiyyət, həm də keyfiyyət baxımından yaxşılaşdırılması, resurs əhatəliliyinin və təqdim edilən kredit çeşidlərinin artırılması hədəf kimi müəyyən edilib.

***E.CƏFƏRLİ***

# 79 ildən sonra...

## Əhməd Əl-Şaraa ABŞ-a səfər edən ilk Suriya prezidenti oldu

**Bir neçə gün öncə Suriyanın müvəqqəti prezidenti Əhməd Əl-Şaraa ABŞ-a rəsmi səfər edib. Qeyd edək ki, səfər 1946-cı ildən sonra yaşanan bir ilkdir - belə ki, səfər müstəqillik əldə etdikdən sonra Suriya liderinin Vaşinqtona ilk səfəridir. Səfərdən öncə ABŞ Əhməd Əl-Şaraanı sanksiyalara məruz qalan şəxslər siyahısından çıxarıb - səfər üçün real zəmin formalaşdırılıb.**

### 35 dəqiqəlik görüş...

79 ildən sonra baş tutan səfər dünya mediasının da diqqət mərkəzində olub. Medianın məlumatına görə, Suriya liderinin korteji Vaşinqtonda Suriya diasporasından dəstək qrupunun yanından keçərək ABŞ prezidentinin iqamətgahının ərazisinə daxil olub. Görüş Ağ Evdə reallaşıb.

Suriya prezidenti Əhməd Əl-Şaraa Ağ Evdə ABŞ Prezidenti Donald Trampla danışıqlar zamanı ikitərəfli münasibətlərin möhkəmləndirilməsini, eləcə də qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələləri müzakirə edib - bunu Suriya liderinin ofisi bildirib. Ofisin açıqlamasında deyilir: "Danışıqlar zamanı əsas diqqət Suriya Ərəb Respublikası ilə ABŞ arasında ikitərəfli münasibətlərə, onları gücləndirmək və inkişaf etdirmək yollarına, eləcə də qarşılıqlı maraq doğuran bir sıra regional və beynəlxalq məsələlərə yönəlib". Ofisin məlumatına görə, tədbirdə Suriyanın xarici işlər naziri Əsəd əl-Şeybani və ABŞ Dövlət katibi Marko Rubio da iştirak ediblər. "Reuters" agentliyinin məlumatına görə, görüş qapalı qapılar arxasında keçirilib və təxminən bir saat 35 dəqiqə davam edib. Agentlik danışıqların təfərrüatlarını açıqlamasa da, daha əvvəl ABŞ Maliyyə Nazirliyi Dəməşqə qarşı sanksiyaların və ixrac nəzarətinin yumşaldıldığını açıqlamışdı.



### Koalisiyanın 90-cı üzvü...

Səfər çərçivəsində Əl-Şaraa Suriyanın rəsmi olaraq "İslam Dövləti" qruplaşmasına qarşı qlobal koalisiyaya qoşulacağını təsdiqləyib. Prezident Tramp isə bildirib ki, ABŞ Suriyanın uğurunu təmin etmək üçün hər cür səy göstərəcək. Tramp Əl-Şaraanın ölkəsini uğura apara biləcəyinə inandığını deyib - "İnanıram ki, bu lider bunu edə bilər", - deyə Tramp bildirib. Daha sonra sosial media paylaşımında Suriya lideri ilə yenidən görüşməyi və danışmağı planlaşdırdığını açıqlayıb. Xarici mətbuat ABŞ administrasiyasının yüksək vəzifəli rəsmisinə istinadən yazıb ki, Əl-Şaraa səfəri zamanı Suriyanın İŞİD qrupuna qarşı qlobal koalisiyanın 90-cı üzvü olacağını təsdiqləyib. Bundan başqa, yayılan məlumatlarda, ABŞ-ın Suriyanın Vaşinqtondakı səfirliyini yenidən açmasına icazə verəcəyi də bildirilir. İki ölkə terrorizmə qarşı mübarizə, təhlükəsizlik və iqtisadi məsələlərdə səylərini daha yaxşı əlaqələndirmək arzularını ifadə ediblər.

Suriya Xarici İşlər Nazirliyi açıqlamasında görüş "dostcasına və konstruktiv" adlandırılıb. Trampın ABŞ-ın Suriya rəhbərliyinin yenidənqurma və inkişaf prosesinin uğurunu təmin etmək üçün lazım olan dəstəyi verməyə hazır olduğunu bir daha təsdiqlədiyi də məlumatlar arasındadır. "Fox News"a verdiyi müsahibədə Əl-Şaraa Tramp-la Suriyada gələcək investisiya imkanlarını müzakirə etdiklərini açıqlayıb. Əl-Şaraa "Suriyanın artıq təhlükəsizlik təhdidi kimi qəbul edilməməsini" istədiyini önə çəkib - o deyib ki, "Suriya indi geosiyasi müttəfiq kimi qəbul edilir. Və ölkəmiz, ABŞ-ın, xüsusən də qaz hasilatına əhəmiyyətli dərəcədə investisiya qoya biləcəyi bir yerdir". Əl-Şaraa sanksiyaların tamamilə ləğvinə nail olmaq istədiyini söyləyib.

### Sanksiyalar necə qaldırılsın: şərtli, yoxsa şərtsiz...

Əl-Şaraa ABŞ-a gəlməzdən əvvəl BMT Təhlükəsizlik Şurası müvəqqəti Suriya prezidentinə və digər hökumət rəsmilərinə qarşı sanksiyaların ləğvinə səs verib. ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Mayk Valsın sözlərinə görə, bu addım Suriyanın Əsəd rejiminin süqutundan sonra yeni bir dövrə qədəm qoyduğunun açıq bir əlamətidir. Əl-Şaraa səfər çərçivəsində Bəşər Əsəd hökuməti və təhlükəsizlik qüvvələri tərəfindən insan haqlarının pozulması ilə bağlı çoxsaylı iddialar əsasında Suriyaya tətbiq edilən sanksiyaların birdəfəlik ləğvini təmin etmək niyyətində olub. Sezar Aktı (2019-cu il Suriya Mülki Müdafiə Aktı) çərçivəsində sanksiyalar artıq Tramp tərəfindən ləğv edilsə də, tam ləğv üçün Konqresin bəzi prosedurları həyata keçirməsi tələb olunur.

Senatın Xarici Əlaqələr Komitəsinin üzvü, Nyu-Hempşirdən olan senator Cin Şeyxinin təklifi sanksiyaların heç bir şərt olmadan qaldırılmasını nəzərdə tutur. Trampın müttəfiqi olan senator Lindsi Qraham tərəfindən hazırlanan başqa bir layihədə isə sanksiyaların aradan qaldırılması üçün şərtlərin yaradılması tələb olunur. Bu tələblərin hər altı aydan bir nəzərdən keçirilməsi planlaşdırılır. Sanksiyaların şərtsiz aradan qaldırılması tərəfdarları isə bildirir ki, bu layihə şirkətləri sanksiya qorxusu səbəbindən Suriyaya investisiya qoymaqdan çəkindirəcək. Suriya Fövqəladə İşçi Qrupunun icraçı direktoru Mouaz Mustafa bunu "Suriya üçün hər hansı bir təşəbbüsü iflic edən kölgə" adlandırıb. Bu arada, ABŞ Maliyyə Nazirliyinin Xarici Aktivlərə Nəzarət İdarəsi (OFAC) Sezar Qanununun 180 gün müddətinə qismən dayandırıldığını elan edib.

*P.İSMAYILOV*

# 3 saatlıq görüş...

## Qazaxıstan və Rusiya prezidentləri nələri müzakirə ediblər?

### Tokayevin Moskva səfərinin əsas məqamları...

**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Rusiyaya 2 günlük dövlət səfəri bir sıra məqamları ilə yadda qaldı. Qeyd edək ki, noyabrın 11-dən başlanan səfər çərçivəsində iki ölkənin rəhbərləri arasında 3 saat çəkən görüş keçirilib. Danışıqların ardından dövlət başçıları Rusiya-Qazaxıstan XXI regional əməkdaşlıq forumuna videokonfrans şəklində qatılıblar. Qeyd edək ki, Qazaxıstan Prezidenti rusiyalı həmkarını 2026-cı ildə ölkəsinə rəsmi səfərə dəvət edib və Putin bu dəvəti qəbul edib. Bundan başqa, noyabrın sonunda Bişkekdə keçiriləcək KTMT sammitində də iki ölkə prezidenti arasında görüş keçiriləcəyi planlaşdırılır.**

### İki ölkə arasındakı əlaqələr...

Keçirilən görüşlərdən sonra mətbuata açıqlamasında Rusiyanın dövlət başçısı danışıqların işgüzar, konstruktiv və məhsuldar keçdiyini bildirib. O qeyd edib ki, ikitərəfli məsələlərin bütün spektri ətraflı müzakirə olunub və aktual regional və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparılıb: "Səfərin mühüm nəticəsi Rusiya-Qazaxıstan münasibətlərinin keyfiyyətcə yeni, daha da inkişaf etmiş hərtərəfli strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə keçirilməsi haqqında bəyannamə oldu. Təbii ki, danışıqlar zamanı iqtisadi əməkdaşlıq prioritet olub. Keçən il ticarət dövriyyəsi 28,7 milyard dollara çatıb - bu, Qazaxıstanın ümumi xarici ticarətinin beşdə birinə bərabərdir. Rusiya artıq təxminən 10 milyard dollarlıq Rusiya kapitalı ilə Qazaxıstanın aparıcı investorları arasındadır. Qazaxıstan bazarında Rusiyanın iştirakı ilə 17 mindən çox biznes subyekti fəaliyyət göstərir və Qazaxıstan iqtisadiyyatının bütün əsas sektorlarında təxminən 70 irimiqyaslı birgə layihə həyata keçirilir".

Putin deyib ki, Rusiya və Qazaxıstan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının və Şanxay Əməkdaşlıq Təşkilatının yaradılmasında ön sıralarda yer almış və onların işində fəal iştirak etmişlər. "Biz Müstəqil Dövlətlər Birliyi və Avrasiya İqtisadi Birliyi daxilində inteqrasiyanı qurmaq üçün birlikdə çalışırıq".

Tokayev isə çıxışında bu səfəri ölkələr arasında strateji tərəfdaşlığın və müttəfiqlik münasibətlərinin daha da möhkəmləndirilməsi baxımından xüsusilə əhəmiyyətli adlandırıb. O, keçirilən danışıqları yüksək qiymətləndirdiyini, ikitərəfli və çoxtərəfli məsələlərin bütün spektrinin ətraflı müzakirə edildiyini və bütün səviyyələrdə intensiv dialoq aparmaq barədə razılığa gəlindiyini açıqlayıb. Tokayev Rusiyanın Qazaxıstanın ən vacib ticarət, iqtisadi və investisiya tərəfdaşı olduğunu bildirib: "Biz həmçinin tranzit və nəqliyyat sahəsində əməkdaşlıq məsələlərini də müzakirə etdik. Şimal-Cənub Boru Kəməri, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu, Ayagöz-Baxtı, Dostık-Moiyntı dəmir yolu xətləri və digər layihələrin imkanlarını ardıcıl olaraq genişləndirmək barədə razılığa gəldik. Sərhədlərarası logistika infrastrukturunun təkmilləşdirilməsinin və sərhəd-keçid məntəqələrinin sadələşdirilməsinin vacibliyini vurğuladıq".



### Rusiya ilə Qazaxıstan arasında sənədlər imzalanıb...

Qeyd edək ki, səfər çərçivəsində iki ölkə arasında bir sıra sənədlər imzalanıb. Sənədlər arasında Rusiya Federasiyası ilə Qazaxıstan Respublikası arasında dövlətlərarası münasibətlərin Hərtərəfli Strateji Tərəfdaşlıq və Müttəfiqlik Səviyyəsinə Keçid haqqında Bəyannamə də var. 42 maddədən ibarət olan bəyannamədə ortaq tarixə, suverenliyə və ərazi bütövlüyünə, müstəqil daxili və xarici siyasətə və mədəni müxtəlifliyə qarşılıqlı yardım kimi məsələlər bir daha təsdiqlənib. Sənədə əsasən, tərəflər Birləşmiş Millətlər Təşkilatının (BMT) Nizamnaməsində təsbit edilmiş bütün məqsəd və prinsiplər də daxil olmaqla, beynəlxalq hüquqa hörmət əsasında daha təmsilçi və ədalətli çoxqütblü dünya nizamı qurmaq məqsədlərinə sadiq qaldıqlarını bəyan ediblər. Tərəflər KTMT-nin böhranlara cavab mexanizmlərinin təkmilləşdirilməsinə, kollektiv təhlükəsizlik sisteminin qüvvələrinin və vasitələrinin döyüş hazırlığının artırılmasına, müasir çağırışların və təhdidlərin aradan qaldırılmasında əməkdaşlığın dərinləşdirilməsinə töhfə verəcəklərini bildiriblər. Eyni zamanda, 1 iyul 1968-ci il tarixli Nüvə Silahlarının Yayılmaması haqqında Müqavilənin gücləndirilməsindən başqa alternativ olmadığı da qəbul edilib. Hər iki ölkə 12 avqust 2018-ci il tarixli Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyada təsbit edilmiş Xəzər dövlətləri arasında əməkdaşlıq prinsiplərinə, o cümlədən konvensiyanı imzalayan tərəflərə məxsus olmayan silahlı qüvvələrin Xəzər dənizində olmamasına, bir-birinin təhlükəsizliyinə xələl gətirməməsinə, Xəzər dövlətlərinin öz ərazilərini tərəflərdən heç birinə qarşı təcavüz və digər hərbi əməliyyatlar üçün digər dövlətlərə qoşmamasına, eləcə də Xəzər dənizindən dinc məqsədlər üçün istifadəsinə və Xəzər dənizi ilə bağlı bütün məsələlərin dinc yolla həllinə sadiq qaldıqlarını bildiriblər. Bundan başqa, bəyannamədə iqtisadi əməkdaşlıq və inteqrasiya sahəsində birgə fəaliyyətlə bağlı maddələr də yer alıb. Sənəddə, həmçinin enerji daşıyıcılarına və nəqliyyat kommunikasiya məsələlərinə, humanitar məsələlərə aid müddəalar da yer alıb

Bundan başqa, iki ölkə arasında 2026-2030-cu illər üçün Hərtərəfli İqtisadi Əməkdaşlıq Proqramı, Üçüncü Ölkələrə İxrac üçün Nəzərdə Tutulan Rusiya və Qazaxıstan yüklərinin Dəmir Yolu Tranzit Daşınması və Transbombalanması sahəsində əməkdaşlığın təşkili haqqında Saziş, Nəqliyyat Təhlükəsizliyinin Təmin Edilməsində Əməkdaşlıq haqqında Saziş və bu kimi sənədlər də imzalanıb.

*SADİQ*

# Şatdaun sona çatdı...

## ABŞ iqtisadiyyatı normal dövrünə qayıdır

ABŞ tarixində ən uzun müddətli bağlanma başa çatdı. ABŞ Prezidenti Donald Tramp gün sayına görə rekord hesab edilən bağlanmaya son qoyan müvəqqəti maliyyələşdirmə qanun layihəsini imzalayıb. Qeyd edək ki, ABŞ Nümayəndələr Palatası da federal hökumətin 30 yanvar 2026-cı ilə qədər maliyyələşdirilməsini nəzərdə tutan və daha əvvəl Senat tərəfindən qəbul edilən qanun layihəsini dəstəkləyib. 222 qanunverici qanun layihəsinin lehinə, 209-u isə əleyhinə səs verib. Səsvermədən dərhal sonra ABŞ prezidenti Donald Tramp sənədi imzalayıb. Beləliklə də, ABŞ tarixində ən uzun şatdaun başa çatıb. Qanun layihəsi yanvar ayının sonuna qədər hökumət əməliyyatları üçün maliyyələşdirmə ayırmaqla yanaşı, bütün 2026-cı maliyyə ili üçün Kənd Təsərrüfatı Nazirliyi, veteranlar üçün və ABŞ hərbi sənaye proqramlarının həyata keçirilməsi üçün vəsait ayırır. Razılaşmaya əsasən, Vaşinqton administrasiyası dövlət işçilərinin işdən çıxarılması ilə bağlı bəzi qərarlarını da ləğv edir və dekabrın ortalarına qədər tibbi sığorta ilə bağlı tədbirlər üzrə səsvermənin keçirilməsini təmin edəcək.



### Respublikaçıların zəmanətsiz vədi...

Müvəqqəti maliyyələşdirməyə əlavə olaraq, sənəddə hərbi tikinti, qanunvericilik ehtiyacları və Kənd Təsərrüfatı Nazirliyi üçün üç illik ayırma paketi öz əksini tapıb. Qanun, həmçinin məzuniyyətə göndərilən dövlət işçilərinin işə bərpa olunmasını və verilməmiş əmək haqqının ödənilməsini təmin edir. Lakin siyasi böhrana səbəb olan əsas məsələ hələ də həllini tapmayıb - respublikaçı senatorlar Obamakare subsidiyalarının uzadılması ilə bağlı ayrıca səsvermə vəd ediblər, lakin bu qanunun qəbuluna zəmanət verməyiblər. Növbəti iki ay yarım ərzində Konqres üzvləri tam federal büdcənin qəbul edilməsi üçün danışıqlar aparacaqlar.

### 7 deputatın səyi ilə...

Qeyd edək ki, rekord bağlanma dövrü Respublikaçılar və Demokratlar arasında həftələrlə davam edən siyasi qarşıdurmanın kulminativ nəticəsi kimi yadda qaldı. Demokratlar büdcə qanun layihəsini təsdiqləməkdən imtina edirdilər - səbəb kimi isə 2025-ci ilin sonunda başa çatan Əlverişli Qayğı Qanunu (qeyri-rəsmi olaraq Obamakare kimi tanınır) çərçivəsində subsidiyaların uzadılmaması göstərilirdi. Qeyd edək ki, bundan əvvəlki 7 ildə ABŞ hökuməti tammiqyaslı bağlanmadan yayına bilmişdi - konqres üzvləri əsas büdcə sənədi üzrə danışıqları davam etdirərkən müvəqqəti büdcə qətnamələri qəbul etdikləri üçün hökumətin bağlanması yalnız qismən dayandırılırdı. Lakin bu dəfə belə bir qətnamənin qəbul edilməsi üçün bütün cəhdlər səs azlığı səbəbindən Senatda uğursuzluğa uğradı - Respublikaçılar prosedur manevələrini aradan qaldırmaq üçün lazım olan 60 səsdən yalnız 53-nü toplaya bilmişdilər.

Son anda qanun layihəsinin qəbul edilməsi bir qrup Demokrat konqresmenin fikrini dəyişməsi ilə reallaşıb - Demokrat Partiyasının radikal qanadının sərt tənqidlərinə baxmayaraq, həmin deputatlar böhranın daha da uzanmasının yaxşı nəticəyə gətirib çıxarmayacağını bəyan ediblər. Nəticədə, qanun layihəsi Senatın 60 senatoru tərəfindən dəstəklənib.

### 700 min federal işçi geri qayıdır...

Bağlanmanın başa çatması hökumətə onun nəticələrini aradan qaldırmağa başlamağa imkan yaradacaq. Şatdaun nəticəsində təxminən 700.000 federal işçi məzuniyyətə göndərilib, onlardan bəziləri işdən çıxarılma barədə bildiriş alıblar. Milli Qvardiya qoşunları, polis məmurları, hava nəqliyyatı dispetçerləri və nəqliyyat işçiləri maaşsız işləməyə məcbur olublar. Böhran uzandıqca bir çox hava nəqliyyatı dispetçerləri işə getməyi dayandırıb və ya işdən çıxıb ki, bu da ölkə daxilində minlərlə uçuşun ləğvinə səbəb olub. Maliyyələşdirmənin olmaması təxminən 42 milyon amerikalıya xidmət göstərən SNAP (Əlavə Qidalanma Yardımı Proqramı) proqramını da pozub.

Vurğulayaq ki, müvəqqəti büdcə qanun layihəsinin imzalanmasından sonra dövlət qurumları normal fəaliyyətə qayıdacaq və dövlət işçilərinə geri qaytarılan əmək haqqı ödəniləcək. Tramp həmçinin bağlanma zamanı vəzifədə qalan hava nəqliyyatı dispetçerlərinə 10.000 dollar bonus ödənilməsini tövsiyə edib. Bundan əlavə, ikitərəfli razılaşma işdən çıxarma bildirişləri alan federal işçilərin işlərini saxlayacağını təmin edir.



### Respublikaçılarda 106, demokratlarda 98...

ABŞ-da müasir büdcə qaydalarının qəbul edildiyi 1976-cı ildən bəri maliyyələşmədə 20 dəfə analoji gecikmələr baş verib. 1980-ci ilə qədər belə fasilələr hökumətin fəaliyyətinə mane olmurdu. Baş prokuror Benjamin Sivilettinin (1980-1981) prosesi tənzimləyən qərarlarından sonra vəziyyət dəyişdi - o, federal qurumların təsdiq edilmiş büdcə olmadan fəaliyyət göstərmək hüququnun olmadığını təsdiqlədi. 1990-cı ildən bu yana hətta bir neçə saatdan çox davam edən hər hansı maliyyə gecikməsi rəsmi olaraq bağlanma hesab olunur.

Qeyd edək ki, ilk bağlanma 1976-cı ildə Cerald Fordun prezidentliyi dövründə təsadüf edib. Daha sonra Cimmi Karterin, Ronald Reyqanın, ata Corc Buşun, Bill Klintonun, Barak Obamanın və Donald Trampın dövrlərində analoji hadisə baş verib. Son bağlanmanı nəzərə almasaq, ən uzun bağlanma Donald Trampın birinci prezidentliyi dövründə baş verib: 34 gün (22 dekabr 2018-ci il - 25 yanvar 2019-cu il). Bu bağlanma zamanı 380 000 dövlət işçisi məzuniyyətə buraxılıb, 420 000 nəfər ödənişsiz işləyib və daha 4,1 milyon insanın gəlirləri mükafatlarının dondurulması səbəbindən təsirlənib. Ədliyyə Departamenti 60,000-dən çox immiqrasiya dinləməsini ləğv edib. Bununla belə, bəzi qurumlar fəaliyyətini davam etdirir - çünki büdcə qanun layihələrinin beşdə biri böhrandan əvvəl artıq təsdiqlənir.

Bundan başqa, ən uzun qapanma Bill Klinton (1995-1996) dövründə 21 gün davam edib. bu bağlanma iki mərhələdən ibarət olub. Başqa bir qapanma isə 2013-cü ildə Barak Obamanın dövründə olub - 16 gün davam edib. Respublikaçı prezidentlərin dövründə bağlanma ümumən 106 gün çəkib. Demokratlarda bu göstərici 98 gündür. Ən çox qapanma yaşayan Respublikası prezident isə Donald Trampdır - onun dövlət başçısı olduğu dövrdə 79 gün qapanma olub. Demokrat Cimmi Karterin prezidentliyi dövründə isə proses ümumən 56 gün çəkib.

**P.İSMAYILOV**

# Tikanı özünə batan gül

## Uilyam Folknerin "Emili üçün qızılgül" hekayəsi haqqında

*əvvəli ötən sayımızda*

Ərgənlik yaşına çatanda atasının qorxusundan heç kim qıza müştəri çıxmır, Emilinin ətrafında bir erkək milçək belə dolana bilmir. Ata həqarətlə baxdığı rəiyyət balalarından kiməsə qız verməyi ağlına belə gətirmir: "Adamların miss Emiliyə acıması da elə o vaxtlardan başlanmışdı; dost-doğmaca bibisi Uayet qarının ömrünün sonlarına yaxın necə xərifləndiyini, axırda da əməllibaşlı havalandığını yada salıb belə nəticə çıxarmışdılar ki, deyəsən özlərini həddsiz tox tutmaq Qrirsonların köhnə mərəzidir; hər halda qohumlarının nəzərində bizim şəhərin cavanları miss Emiliyə nəinki tay deyildi, heç onun əlinə su tökməyə də yaramazdılar. İndiki kimi gözümüzün önündədir: atası əlində qamçı ayaqlarını gen qoyub şəstlə artırmada dayanardı, bir az arxada, açıq qapının arasında isə ağ geyimli zərif Emili. Elə ona görə yaşı otuzu haxlayan qızın hələ də evin bir küncündə qarıdığını görəndə ürəyindən tikan çıxan şəhər əhli nəinki buna sevinir, həm də özünü qisası alınmış sayırdı: bizim fikrimizcə, indi münasib bir adam rast düşsəydi, Emili daha heç kəsi vecinə almaz, hətta havalı bibisindən də çəkinməyib əlüstü razılıq verərdi".

Atası öləndə məlum olur ki, kişi qızına yaşadığı evdən savayı heç nə qoymayıb. Bu vəziyyət camaatın ürəyindən xəbər verir, onlar Emilinin dərdinə qalıb halına acımaqdan zövq alırlar, düşünürlər ki, qız, nəhayət, ehtiyacın, təkliyin dadını duyub xudpəsəndlikdən əl çəkəcək, daha özünü başqalarından üstün tutmayacaq, yalqız qalmağın qorxusundan camaata qaynayıb-qarışıb, can evinə uzanan əlləri dalayan tikanlı çəpəri aradan götürəcək: "Atası ölən günün sabahısı el adətincə həm başsağlığı, həm də əl-ayaq verməl məqsədilə təşrif buyuran şəhər xanımlarını o, qapı ağzında, həmişəki geyimində qarşılamışdı - üz-gözündə hüzndən zərrəcə əsər-əlamət olmayan, bir gilə də göz yaşı sezilməyən miss Emili atasının ölmədiyini təkidlə elan edərək, nə keşişlərin, nə də həkimlərin heç bir cəhdinə məhəl qoymadan düz üç gün öz dediyinin üstündə durub cənazənin evdən çıxarılmasına icazə verməmişdi; yalnız qanun üzrə müəyyən ölçü götürmək məqamı çatanda inadından qəfil əl çəkib təslim olmuşdu və meyiti dərhal aparıb basdırmışdılar... O zaman bunun dəlilik əlaməti olması heç kəsin ağlına gəlməmişdi, axı miss Emilini anlamaq çətin deyildi: atası evdən o qədər cavanın ayağını kəsmişdi ki, eyni aqibətlə üzləşən adamlar kimi indi bu büsbütün yalqızlaşmış qadının da yapışmağa özgə heç nəyi qalmamışdı".

***

Atasının ölümündən sarsılıb xeyli müddət xəstə yatan Emili sağalandan sonra bir az fərqli cilddə meydana çıxır: "Biz onu təzədən görəndə saçlarını qısa kəsdirmişdi, buna görə yeniyetmə qızlara bənzəyirdi; bir müddət də kecəndən sonra o öz ciddi və qəmgin görkəmiylə eynən kilsə vitrajındakı zərif mələk təsvirlərini xatırlatmağa başladı. Bu həmin əyyamlardı ki, hökumət küçələri səkilətmək qərarı vermişdi; müqavilələr imzalanmış və yayda (onda miss Emilinin atası dünyasını dəyişmişdi) iş əməllicə qızışmışdı; şəhərdə inşaat briqadası - Homer Berronun başçılığı altında zənci və qatırlardan ibarət işçi qüvvəsi peyda olmuşdu... Sifəti gündən qapqara yanmış boylu-buxunlu, çılğın təbiətli Berron xalis yanki idi: tünd qara saçları, açıq rəngli gözləri, çox gur səsi vardı. Arxalarınca dəstə-dəstə qaçışan oğlan uşaqları onun zəncilərə necə təpinməsinə, o yazıqların da başları üzərinə qaldırıb-endirdikləri ağır külünglərin ritminə uyğun tərzdə necə oxumalarına heyranlıqla tamaşa edərdilər. Tez bir zamanda bu yanki az qala bütün şəhərlə curlaşdı: hansı küçədə qəhqəhə, hansı tində hay-küy səsləri ucalırdısa, demək, Berron orada - yığnağın başındaydı. Az keçmiş camaat onu miss Emili ilə birgə görməyə başladı: icarəyə götürdükləri üstüaçıq, sarı təkərli ikiadamlıq faytonda onlar hər bazar günü gəzintiyə çıxırdılar".

Camaat əvvəl-əvvəl Emilinin dirçəlib açılmasına, qızın canında həyat toxumlarının cücərməsinə sevinsə də, şəhər xanımları əminliklə deyirlər ki, Qrirsonlar şimallını, üstəlik də günəmuzd işləyən birisini dünyasında özlərinə yaraşdırmazlar. Keçmiş zamanların əxlaqi dəyərlərini unutmamış yaşlı qadınlarsa bu fikirdədirlər ki, əsl ledi bədbəxtliyə düçar olanda belə öz şərəf-ləyaqətini hər şeydən uca tutmalıdır. Emili isə rəiyyətin dedi-qodusuna məhəl qoymur, davranışıyla cəmiyyətə meydan oxuyur: "Hamı onun sındığını iddia eləsə də, miss Emili yenə əvvəlki qaydada başını dik tutub şax gəzir, özünü qabaqkından da təşəxxüslü aparmaqla sanki Qrirsonlar nəslinin son nümayəndəsinin ləyaqətini nəyin bahasına olur olsun isbatlamağa çalışırdı; camaatın məzəmmət dolu mənasız dedi-qoduları isə deyəsən onun öz müstəsnalığına, haqlı olduğuna inamını daha da gücləndirmişdi..."

***

Şəhərdə Emilinin gəlmə yankiyə ərə gedəcəyi danışıldığı vaxt klubda avaralanmağa alışmış Homer Berron cavanları başına yığıb subaylığın sultanlığından dəm vurur. Buna baxmayaraq onlar hər bazar günü faytonla gəzintiyə çıxırlar, günün altında parıldayan faytonda miss Emili həmişəkitək başını dik tutur, şlyapasını yan qoyan Homer isə damağında siqar əlindəki qamçını şəstlə oynadır (bu qamçı mərhum atanın acıqlı qırmancına çox bənzəyir). Təbii ki, bütün bunlar mühafizəkar əhalinin heysiyyətinə toxunur: "İşi belə görən qadınlar giley-güzara başlamışdılar ki, bəs guya onların bu hərəkətləri həm cavanlara pis təsir göstərir, həm də şəhərin ad-sanına ləkə yaxır. Kişilər qaşınmayan yerdən qan çıxarmamağı məsləhət görsələr də, arvadlar dil boğaza qoymamış, baptist keşişini dilə tutub miss Emilinin yanına göndərə bilmişdilər (bütün qohumları kimi miss Emili də yepiskop kilsəsinə mənsub idi). Keşiş bu görüşün necə keçməsi barədə heç kəsə bir kəlmə danışmasa da, miss Emili ilə təkrar görüşdən qətiyyətlə boyun qaçırmışdı. Növbəti bazar günü camaat yenə onları faytonla küçələri dolaşan görmüş, sabahısı isə keşişin arvadı Alabamadakı qohumlara məktub göndərmişdi". Söhbət Emilinin Alabamada yaşayan, hələ atasının sağlığından küsülü olduqları əmisi qızlarından gedir.

Şəhərin küçələrində iş başa çatandan bir müddət sonra Homer Berronun yoxa çıxması camaat arasında yeni şayiələrin yayılmasına səbəb olur. Emilinin aptekdən siçan dərmanı alması adamlarda belə bir qənaət yaradır ki, qız özünü öldürəcək: "Nikah barədə heç nə bildirilməməsi şəhər əhlini bir qədər məyus eləsə də, belə düşünürdük ki, yəqin Homer miss Emilini öz evinə köçürməklə bağlı hazırlıq görməyə gedib, ya da imkan yaradıb ki, miss Emili öz qohumlarından canını biryolluq qurtarsın (onlara qarşı əməlli-başlı qəsd hazırlanmışdı, bu işdə biz hamımız miss Emilinin tərəfindəydik). Həqiqətən də, bircə həftənin tamamında qızlar Alabamaya qayıtmışdılar, üç gündən sonra isə, hamının güman elədiyi kimi, Homer Berron şəhərdə yenidən peyda olmuşdu: miss Emilinin qonşusu axşamın alatoranında zənci xidmətçinin onu dal qapıdan içəri buraxdığını öz gözləriylə görmüşdü".

***

Bundan sonra Homer Berronu gördüm deyən tapılmır. Bir müddət miss Emili özü də gözə dəymir, düz yarım il evdən eşiyə çıxmır. Camaat Emilinin düşdüyü halları atasının ruhuna bağlayır, belə yozurlar ki, kişinin ruhu evdən çəkilib getmək istəmir, qızının yeni həyat qurmasına, könlü istədiyi kimi yaşamasına imkan vermir: "Biz onu təzədən görəndə miss Emili həddsiz kökəlmişdi; dən düşmüş saçlarının ağı isə ildən-ilə çoxalıb axırda istiotla duz qarışığı rənginə çaldı; adətən tükənməz enerjili işgüzar kişilərdə müşahidə olunan saçın bu cür rəngi miss Emilidə yetmiş dörd illik ömrünün sonunacan dəyişib eləmədi. Çini qablara naxışsalmadan dərs dediyi altı-yeddi il saya alınmasa (onda yaşı qırxa yaxın idi), bütün bu müddət ərzində evin giriş qapısı bağlı qaldı. Alt mərtəbədəki otaqlardan birini miss Emili vaxtilə emalatxanaya çevirmişdi, polkovnik Sartorisin yaşıdlarının qızları, qız nəvələri bazar günləri əllərinə iyirmi beş sent nəzir pulu verilib göndərildikləri kilsəyə hansı həvəslə yollanırdılarsa, eyni həvəslə də bu otağa dərs almağcün gəlirdilər. Vergidən də miss Emili məhz o vaxtlar azad olunmuşdu".

davamı növbəti sayımızda



**F.Uğurlu**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Bakıdan Belemə gedən yol...

## COP29 qlobal iqlim gündəliyində dönüş nöqtəsi oldu

Məlumdur ki, Braziliyanın Belem şəhərində Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 30-cu sessiyası (COP30) keçirilir. COP30 ötən il Bakıda baş tutan COP29-un məntiqi davamıdır. Qeyd edək ki, Belemdəki tədbir Azərbaycanda iqlim sammitində əldə edilən razılaşmaları möhkəmləndirməyi hədəfləyir. Azərbaycan nümayəndə heyəti də Belemdə keçirilən sammitdə iştirak edir. Artıq bir neçə gündür ki, konfrans çərçivəsində müxtəlif tematik tədbirlər keçirilir.

Dünən Belemdə Yaşıl İqlim Fondu (GCF) və Beynəlxalq Miqrasiya Təşkilatının (IOM) birgə təşkilatçılığı ilə, COP29-un aparıcı təşəbbüsü olan Bakı İqlim və Sülh Fəaliyyəti Mərkəzinin (Bakı Mərkəzi) İllik Yüksəksəviyyəli Dialoqu keçirilib. Tədbirdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına (UNFCCC) üzv ölkələrin nazirləri, yüksək səviyyəli hökumət nümayəndələri, BMT qurumları və beynəlxalq maliyyə institutlarının təmsilçiləri iştirak ediblər.Görüşün əsas məqsədi iqlim dəyişiklikləri və sülh əlaqəsi üzrə qlobal gündəliyin daha da irəlilədilməsindən ibarət olub.

## "Sülh, Yardım və Bərpa naminə İqlim Fəaliyyəti üzrə Bakı Çağırışı"

Tədbirin açılışında çıxış edən COP29-un Sədri Muxtar Babayev qeyd edib ki, COP29 zamanı təsis edilmiş Bakı Mərkəzi, iqlim fəaliyyəti ilə sülh və sabitlik arasında yeni əməkdaşlıq mərhələsinin əsasını qoyub.

Mərkəzin təqdimatı ilə çıxış edən xarici işlər nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Elşad İskəndərov bildirib ki, Bakı Mərkəzi artıq iqlim və münaqişələrdən əziyyət çəkən ölkələrdə innovativ modellərə əsaslanan pilot layihələrin icrasına başlayır. Natiq bu vəzifənin COP29 təşəbbüsü olan Bakı Mərkəzinə həvalə edilməsini beynəlxalq tərəfdaşların ölkəmizin etibarlı xarici siyasəti və iqlim diplomatiyasına inamının nümunəsi kimi dəyərləndirib.

Tədbirdə çıxış edən Yaşıl İqlim Fondunun İcraçı direktoru xanım Mafalda Duarte Bakı Mərkəzinə tam dəstəkyini ifadə edib və sözügedən təşəbbüsün iqlim maliyyəsini sülh və dayanıqlılıq nəticələri ilə birləşdirmək, həssas ölkələrə yardımın artırılması sahəsində vacib beynəlxalq mexanizmə çevrildiyini vurğulayıb.

Bu xüsusda çıxış edən Azərbaycan xarici işlər nazirinin müavini Yalçın Rəfiyev Mərkəzin ölkəmizin digər vacib təşəbbüsü olan "Bakıdan Belemə Yol Xəritəsi"nin icrasında əhəmiyyətli rol oynayacağına ümid etdiyini bildirib.

Tədbirdə ilk pilot layihələr üzrə birgə işçi qruplarının yaradılmasına dair Bakı Mərkəzi ilə Qvineya-Bisau Ətraf Mühit, Biomüxtəliflik və İqlim Fəaliyyəti Nazirliyi, eləcə də Qambiya Ətraf Mühit, İqlim və Təbii Sərvətlər Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma memorandumları imzalanıb.

İmzalanma mərasimindən əvvəl çıxış edən Qambiya və Ficinin iqlim nazirləri, Qvineya-Bissau, İraq və Malavinin yüksəksəviyyəli hökumət nümayəndələri, Bakı Mərkəzinin qısa müddətdə qlobal müstəvidə vacib əməkdaşlıq platformasına çevrildiyini vurğulayaraq, Azərbaycan dövlətinə və COP29 sədrliyinə beynəlxalq sülhün irəlilədilməsi sahəsindəki liderliyə, həmçinin həssas ölkələrə göstərdiyi davamlı dəstəyə görə təşəkkürlərini bildiriblər.

Tədbirin sonunda Bakı Mərkəzinin Yüksəksəviyyəli Dialoqunun Belem Kommünikesi qəbul edilib.

## "COP30 komandası ilə sıx əməkdaşlıq edirik"




Milli Məclisin deputatı, COP29-un iqlim dəyişmələri üzrə yüksəkəviyyəli çempionu Nigar Arpadarai bildirib ki, COP prosesində iqlim dəyişmələri üzrə yüksəksəviyyəli çempionun əsas rolu qeyri-dövlət aktorlarının-xüsusən də özəl sektorun və vətəndaş cəmiyyəti nümayəndələrinin iqlim gündəminə fəal şəkildə cəlb olunmasını təmin etməkdir: "Bu məqsədlə COP30-a qədər olan dövrdə bir sıra şəhərlərdə keçirilən tədbirlərdə iştirak etdik. San-Paulu və Rio-de-Janeyroda qeyri-hökumət təşkilatlarının iştirakı ilə mühüm görüşlər baş tutdu. San-Paulu bələdiyyəsinin təşkil etdiyi Dayanıqlı İnnovasiya Forumu və "Bloomberg" filantrop təşkilatının keçirdiyi Biznes Forumu bu baxımdan xüsusilə əhəmiyyətli idi. Hər iki tədbirdə yaşıl iqtisadiyyata keçid, dayanıqlı inkişaf və COP29-dan COP30-a keçid məsələləri müzakirə olundu".

Deputat qeyd edib ki, hazırda Azərbaycan nümayəndə heyəti COP30-un rəsmi açılış mərasimindən sonra da Belem şəhərində fəaliyyətini davam etdirir: "COP29 sədrliyi artıq COP30 sədrliyinə rəsmi şəkildə təhvil verilib. Bununla belə, biz COP30 komandası ilə sıx əməkdaşlıq edirik. Məqsəd COP-lar arasında keçid prosesinin ardıcıl və effektiv şəkildə davam etməsidir. Bu, qəbul olunmuş qərarların icrası və onların təsirinin artırılması baxımından çox önəmlidir".

Nigar Arpadarai əlavə edib ki, COP29 zamanı qəbul edilən tarixi qərarlardan biri yeni maliyyə çərçivəsi ilə bağlı idi: "Bakıdan Belemə yol xəritəsi" adlı hesabatda 300 milyard dollarlıq iqlim maliyyəsinin 1,3 trilyon dollara qədər artırılması istiqamətində tövsiyələr təqdim olundu. Həm COP29, həm də COP30 komandaları bu sənəd üzərində sıx işləyiblər".

*Yeganə*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti üzrə hazırlanmışdır**

# Zəhərli şirinlik...

## Şəkər xəstəliyi həyatımızı necə əsir alır?

Adı nə qədər şirin səslənsə də, bu "şirinlik" minlərlə insanın həyatına acı qatır. Şəkər xəstəliyi bir çoxlarının düşündüyü kimi sadəcə qan şəkərinin artması deyil, digər orqanları da sıradan çıxaran səssiz, amansız bir düşməndir. Bəlkə də şəkər xəstəliyi deyiləndə çoxlarının ağlına elə də təhlükəli olmayan xəstəlik gəlir. Bu səbəbdən də ona adi bir xəstəlik kimi baxmışıq. Ancaq bütün xəstəliklər ağrı-acıdır, əzabdır. Şəkər xəstələrini adətən ayaq üstündə görmüşük. Elə buna görə də bu xəstələrin özləri və yaxınları ona adi xəstəlik kimi baxıblar.

Lakin şəkər xəstəliyinə adi baxdıqca o öz yerini daha da möhkəmləndirir. Minlərlə qapılar döyüb, çağırılmamış qonaq kimi evlərə girir. Ona adi xəstəlik kimi baxdıqca bütün bədənimizə hakim kəsilə bilər. Bir də görürük ki, artıq bu "şirin" xəstəlik bizə acıdan başqa bir şey vermir. Artıq süfrəyə düzülən bütün nemətlərə əl uzada bilmirik. Bütün ədviyyatlarla hazırlanan yeməkləri yeyə bilmirik. Bu "şirin" xəstəlik şirin olan hər şeyi əlimizdən alıb, azşəkərli məhsullarla qidalanmağa vadar edib bizləri. Pəhriz saxlamağa, günün müəyyən saatlarında yeyə bilməyə, yanımızda şəkərimizi ölçən cihaz gəzdirməyə vadar edib.

Hazırda bütün dünyanı ciddi narahat edən xəstəliklərdən biri də şəkərli diabetdir. Bu xəstəlik artıq qlobal problem kimi qəbul olunub. 1991-ci ildən başlayaraq Beynəlxalq Diabet Federasiyasının və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) tövsiyəsi ilə hər il noyabrın 14-ü Ümumdünya Diabet Günü kimi qeyd olunur.

## Niyə məhz 14 noyabr?

Həmin gün milyonlarla insanın həyatının xilaskarı, insulin preparatını kəşf edən tibb elmləri doktoru, professor, tədqiqatçı alim, Nobel mükafatı laureatı Frederik Bantinqin doğulduğu tarixdir. Dostunun gənc yaşda dünyasını dəyişməsi ilə fizioloq F.Bantinq elmi axtarışlara başlayır. Axtarışlar uğurla başa çatır. 1922-ci ildə gənc alim dostunun ölümünə səbəb olan şəkər xəstəliyinə düçar olmuş 14 yaşlı oğlanı müalicə edir. Bununla da onun kəşfi bütün dünyada yayılır. Bundan sonra kanadalı fizioloqun doğum günü 14 noyabr, 1991-ci ildən etibarən təqvimə Şəkərli Diabetlə Beynəlxalq Mübarizə Günü kimi salınıb.

Ümumdünya Diabet Günü Azərbaycan da daxil olmaqla 160-dan çox ölkədə qeyd olunur. Hər il bu tarixlə bağlı diabetə dair əhəmiyyətli mövzularda beynəlxalq miqyaslı müzakirələr, humanitar tədbirlər keçirilir.

## Birinci və ikinci tip diabet...

Endokrinoloq Gündüz Əliyev "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, 40 yaşına qədər olan insanlarda adətən birinci tip şəkərli diabet olur. Burada insulin ya tam olmur, ya da cüzi miqdardadır: "Bu da karbohidrat, yağ və digər mübadilələri pozur və ona görə də diabetə mübadilə pozğunluğu xəstəliyi deyirlər. Burada genetik faktorların və infeksiyanın da rolu çoxdur. İkinci tip diabet isə 40 yaşından sonra ortaya çıxır və bu diabet yüngül gedişə malik olur. Öz müalicəsi üçün adətən insulin istəmir, pəhrizlə, həblərlə müalicə olunur, çox arıqlamağa imkan vermir".




## İnsanların çoxu şəkər olduğunu bilmir...

G.Əliyev şəkərli diabet xəstəliyinin simptomlarından da danışıb: "Xəstəliyin ən çox rast gəlinən klassik simptomları çox su içmə, sidiyə getmə, yemə və kəskin arıqlamadır: "Bunların çoxu ikinci tipdə olmur. Əlamətlərdən hansısa olur, amma hökm deyil ki hamısı bir arada olsun. Ona görə də insanların çoxu şəkərli diabet olduğunu bilmir. Bu, təsadüfi yoxlama zamanı üzə çıxır".




## Valideynlərin hər ikisi diabetdirsə...

Endokrinoloqun sözlərinə görə, şəkərli diabet genetik xəstəlikdir. Əgər uşaq doğulanda valideynlərin hər ikisi diabetdirsə, uşağa ötürülmə ehtimalı 30-50 faizə qədərdir: "Təkcə anada olanda 5, atada olanda isə 10 faiz olur ki, bunun da başvermə, törəmə səbəbini hələ ki, elm bilmir. Uşaqlara genetik meyil ötürülür, amma onun meydana çıxması üçün şərait lazımdır, məsələn, stress kimi. Diabet ömürlük xəstəlikdir, ona yaxşı qulluq etməsən, ağırlaşmaları olur. Məsələn, gözdən əlil olanların 25, aşağı ətrafları kəsilmiş, amputasiya olunmuş şəxslərin 25-30, hemodializə gedən xəstələrin 40-50 faizi diabetin payına düşür. Demək olar ki, diabetin insan orqanizmində zədələmədiyi toxuma qalmır".

## "Varlıların xəstəliyi..."

Həkim bildirib ki, hazırda şəkərli diabetin ən çox səbəbi oturaq həyat tərzi, piylənmə, stress kimi faktorlardır: "Məsələn, xroniki stress şəkərə səbəb olur ki, onu mütəmadi hərəkətlə -gəzməklə, üzməklə yandırmaq lazımdır. Müasir insanlar karbohidratlı qidalardan çox istifadə edirlər. Keçmişdə tortu, şəkərburanı ancaq varlı adamlar yeyərdi, ona görə də buna "varlıların xəstəliyi" deyirdilər. Hesablayanda görürsən ki, bir nəfərə il ərzində az qala yarım, 1 kisə şəkər tozu düşür. Keçmişdə belə tələbat, həm də təminat yox idi".

*Yeganə BAYRAMOVA*

## Zaqatala sakini "Nar"dan avtomobil qazandı




Sərfəli mobil operator "Nar" "Çoox Şanslı" lotereyası çərçivəsində növbəti avtomobil tirajını uğurla yekunlaşdırıb. Belə ki, üçüncü "Haval H6 Ultra" avtomobilinin sahibi müəyyənləşib. Bu dəfə qalib Zaqataladan olan Nəcabət İbrahimova olub. "Nar" qalibi təbrik edərək ona avtomobilin açarını təqdim edib. Bununla yanaşı, "Xiaomi Redmi Note 14 Pro" smartfonunu qazanan üç "Nar" abunəçisi - Təvəkgül Həmidov, Elvin Dünyamalıyev və Şakir Həsənov hədiyyələrini böyük sevinclə qəbul ediblər.

Qaliblər tam təsadüfi seçimlə müəyyən olunub və nəticələr canlı yayımda elan edilib. Qeyd edək ki, "Çoox Şanslı" lotereyası ilin sonuna qədər davam edəcək. Bu müddət ərzində "Nar" abunəçiləri hər gün "Xiaomi Redmi Note 14 Pro", hər həftə "Haval H6 Ultra" və finalda "Li L9 Ultra" avtomobili kimi möhtəşəm hədiyyələr qazanmaq imkanı əldə edirlər.

Xatırladaq ki, "Çoox Şanslı" lotereyasında iştirak etmək üçün "Nar" abunəçiləri sadəcə balanslarını artıra və ya şans qazandıran şanslı paketlərdən birini aktivləşdirə bilərlər. Belə ki, 1 AZN-lik şanslı paketə daxil olan 3 şans və 15 şəbəkədaxili danışıq dəqiqəsini *71#YES;

2 AZN-lik şanslı paketə daxil olan 7 şans və 35 şəbəkədaxili danışıq dəqiqəsini *72#YES; 3 AZN-lik şanslı paketə daxil olan 12 şans və 55 şəbəkədaxili danışıq dəqiqəsini isə *73#YES nömrəsini yığaraq aktivləşdirmək mümkündür. Hər balans artımı və ya paket aktivləşdirməsi abunəçiyə əlavə şans qazandırır və qalib olmaq ehtimalını artırır.

Abunəçilər topladıqları şansların sayını və iştirak statuslarını "Nar+" tətbiqi və nar.az veb səhifəsindəki xüsusi lotereya bölməsindən rahatlıqla izləyə bilərlər.

Daha ətraflı məlumat üçün: lotereya.nar.az/

Hazırda 2,2 milyon abunəçiyə xidmət göstərən "Nar" son 6 il ərzində Müştəri Loyallığı İndeksi göstəricisinə əsasən Azərbaycanda lider mobil operatordur. Bu uğurun arxasında "Nar"ın ardıcıl şəkildə həyata keçirdiyi müştəriyönümlü strategiya dayanır. Mobil operator istifadəçilərinə sərfəli qiymət qarşılığında dayanıqlı və yüksəkkeyfiyyətli rabitə xidmətləri, müxtəlif internet paketləri və müasir eSim texnologiyası təqdim edir.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4936**
**Sifariş: 2329**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova